Il a été utilisé pour la première fois en radio par les opérateurs du paquebot Titanic, lorsque ce dernier a heurté un iceberg le 14 avril 1912. Avant le « SOS » chaque service de télégraphie sans fil (TSF) utilisait un propre signal de détresse répété plusieurs fois.

À noter que l'invention du morse est plus souvent attribuée à Samuel Morse, peintre incomparable en son genre. Inventé en 1838 pour la télégraphie, le code morse est considéré comme le précurseur des communications numériques.

**A variantı 6 saylı test tapşırığı**
**B variantı 6 saylı test tapşırığı**
**C variantı 6 saylı test tapşırığı**
**D variantı 6 saylı test tapşırığı**

**6.** Décidez si les déclarations sont ***vraies*** ou ***fausses*** d'après le texte.

6.1. À l'origine, le signal « SOS » veut dire «Sauver Nos Âmes».

A) Vrai B) Faux

**İzah:** *« SOS » siqnalı, yalnız hərflərinin sadəliyi üçün qəbul edilmişdi və bu abreviatura yarandığı zaman onun heç bir tərcüməsi yox idi. Buna görə də, bu fikir* ***yanlışdır.***

6.2. •• — — — •• est la transcription de « SOS » en code Morse.

A) Vrai B) Faux

**İzah:** *« SOS » siqnalı 3 nöqtə, 3 tire və daha 3 nöqtədən ibarət idi. Verilmiş cümlədə 2 nöqtə olduğu üçün bu fikir* ***yanlışdır.***

6.3. La première fois le signal « SOS » est utilisé en radio pendant l'accident de Titanic.

A) Vrai B) Faux

**İzah:** *Mətndə verilən məlumata əsasən, « SOS » siqnalı ilk dəfə Titanik gəmisinin qəzası zamanı istifadə edilmişdir. Buna görə də, bu fikir* ***doğrudur.***

6.4. Le signal « SOS » est accepté pendant la conférence internationale au début du XX siècle.
A) Vrai B) Faux

**İzah:** *Mətndə verilən məlumata əsasən, « SOS » siqnalı 1906-cı ildə Berlində keçirilən beynəlxalq konfrans zamanı qəbul edilir. Buna görə də, bu fikir* ***doğrudur****.*

**A variantı 7 saylı test tapşırığı**
**B variantı 9 saylı test tapşırığı**
**C variantı 9 saylı test tapşırığı**
**D variantı 7 saylı test tapşırığı**

**7.** Répondez d'après le texte.
*Jusqu'au signal « SOS » qu'est-ce que les différents services de télégraphie utilisaient dans une situation de catastrophe?*
A) les paroles « venez vite, détresse »
B) les signaux transcrits en lettres
C) les signaux émis par la radio
D les différents signaux de détresse
E) toujours les signaux sonores

**İzah:** *Bu test tapşırığında mətnə əsasən suala cavab vermək tələb olunur. Sualda « SOS » siqnalından istifadəyə qədər (əvvəllər), fəlakət zamanı insanların nələrdən istifadə etdiyi soruşulur. Mətnə əsasən hər kəs şəxsi siqnallarından istifadə edirmiş* (chaque service de télégraphie sans fil utilisait un propre signal de détresse). *Buna görə də,* **« les différents signaux de détresse »** *fikrinin qeyd olunduğu bənd* ***doğru*** *cavabdır.*

**A variantı 8 saylı test tapşırığı**
**B variantı 7 saylı test tapşırığı**
**C variantı 8 saylı test tapşırığı**
**D variantı 8 saylı test tapşırığı**

**8.** Complétez la phrase d'après le texte.
*Le code Morse est le moyen … .*
A) d'écriture moderne
B) de télégraphe sans fil
C de communication numérique
D) de radiodiffusion
E) de communication verbale

**İzah:** *Bu test tapşırığında mətnə əsasən cümləni tamamlamaq tələb olunur. Mətnə əsasən, Mors kodu şifrəli nitq vasitəsidir. (*le code morse est considéré comme le précurseur des communications numériques). *Buna görə də,* **«de communication numérique »** *fikrinin qeyd olunduğu bənd* ***doğru*** *cavabdır.*

**A variantı 9 saylı test tapşırığı**
**B variantı 8 saylı test tapşırığı**
**C variantı 7 saylı test tapşırığı**
**D variantı 9 saylı test tapşırığı**

**9.** De quoi s'agit-il dans le texte ?
A) du code Morse
B) des accidents maritimes
C) des différents appels de détresse
D de l'histoire du signal « SOS »
E) de la conférence de Berlin

**İzah:** *Bu test tapşırığında mətndə əsas nədən bəhs olunduğu soruşulur. Mətndə əsasən « SOS » siqnalının tarixindən, onun yaranma səbəbindən söhbət gedir. Buna görə də, bu test sualında* **« de l'histoire du signal « SOS » »** *fikrinin qeyd olunduğu bənd* ***doğru*** *cavabdır.*

**A variantı 10 saylı test tapşırığı**
**B variantı 10 saylı test tapşırığı**
**C variantı 10 saylı test tapşırığı**
**D variantı 10 saylı test tapşırığı**

**10.** Choisissez les idées correctes d'après le texte.
1. Les signaux de détresse sont utilisés depuis 1906.
2. La raison de choix du signal « SOS » est sa simplicité.
3. « CQD » est le signal radio le plus moderne.
4. Le signal « SOS » peut être transmis par signal lumineux ou sonore.
5. « CQD » a été changé à cause de la difficulté à émettre.

**İzah:** *Bu seçim tipli tapşırıqda mətndə doğru fikirləri seçmək tələb olunur. Mətndə qeyd olunur ki, ilk olaraq həyəcan siqnalı « CQD » kimi qeyd olunurdu, lakin bu işarə çətinlik yaratdığına görə o, 1906-cı ildən başlayaraq daha rahat və daha yadda qalan « SOS » işarəsi ilə əvəz edildi. Bununla yanaşı, mətndə « SOS » siqnalının fərqli, yəni işıqlı və səsli* (signal lumineux ou sonore) *formaları haqqında da məlumat verilir. Bütün bunlara əsasən* **2, 4, 5** *bəndlərində qeyd olunan fikirlər* ***doğru*** *cavablardır.*

***Lisez le texte et répondez aux exercices de 11 à 15.***

Selon l'ONU, 60% de la population mondiale vivra en ville en 2030. N'est-il pas temps de transformer les zones urbaines en environnements plus harmonieux pour nos besoins quotidiens ? La place de la voiture en ville paraît dépassée. Que se passerait-il si on les interdisait dans les villes ?

Il nous est presque impossible d'imaginer un paysage urbain sans la présence de voitures. La plus grande partie d'entre elles n'est pas en circulation mais en stationnement. Imaginons donc le gain de superficie considérable. On pourrait redonner une nouvelle vie à ces territoires.

L'interdiction de la voiture aurait donc pour conséquence une amélioration considérable de l'air. De plus, c'est aussi la pollution sonore qui serait fortement réduite. Lorsque les rues sont libérées des places de stationnement et du danger que représente la circulation, cela offre une liberté de mouvement sécurisée pour les citoyens de tout âge. Les parents se trouvent alors libérés de la peur de laisser leurs enfants sans surveillance dans la jungle urbaine. Les accidents de la route deviendront une exception. L'interdiction des voitures dans la ville devrait intégrer les habitants des zones périphériques et rurales. La création de grands parkings relais aux portes des villes serait indispensable pour maintenir le lien entre les villes et la périphérie.

D'autre part, cela peut aider à réduire les dépenses financières. Repenser la vie urbaine signifie aussi repenser les dépenses de ses habitants. Les villes pourraient investir cet argent dans d'autres domaines. Certains marchés seraient impactés par ce changement comme la vente de vélo qui connaîtrait une passion ou le domaine de l'immobilier qui serait transformé.

Si ce pari est réussi, cette interdiction ne serait pas un sacrifice, mais un gain au service de notre qualité de vie.

**A variantı 11 saylı test tapşırığı**
**B variantı 11 saylı test tapşırığı**
**C variantı 11 saylı test tapşırığı**
**D variantı 11 saylı test tapşırığı**

**11.** Décidez si les déclarations sont ***vraies*** ou ***fausses*** d'après le texte.

11.1. Avec l'interdiction des voitures, les zones rurales deviendront plus bruyantes.

A) Vrai B) Faux

**İzah:** *Verilmiş cümləyə əsasən maşınlara qoyulan qadağalar sayəsində kənd zonaları daha səs-küylü olacaq. Mətndə bu barədə məlumat verilmir. Buna görə də, bu fikir* ***yanlışdır****.*

11.2. Des voitures occupent de grands territoires dans les villes pour le stationnement.

A) Vrai B) Faux

**İzah:** *Verilmiş cümləyə əsasən şəhərdə maşın dayanacaqları böyük əraziləri tutur. Eyni fikir mətndə də öz əksini tapır* (La plus grande partie d'entre elles n'est pas en circulation mais en stationnement). *Buna görə də, bu fikir* ***doğrudur****.*

11.3. La vente de vélo ou le domaine de l'immobilier serait transformé avec l'interdiction des voitures.

A) Vrai B) Faux

**İzah:** *Verilmiş cümlədə maşınlara qoyulan qadağaların velosiped satışına, yaxud daşınmaz əmlak sahəsinə təsir edəcəyi və müəyyən dəyişikliklərə səbəb olacağı bildirilir. Bu fikir mətndə öz əksini tapır* (Certains marchés seraient impactés par ce changement comme la vente de vélo qui connaîtrait une passion ou le domaine de l'immobilier qui serait transformé). *Buna görə də, bu fikir* ***doğrudur****.*

11.4. En cas de l'interdiction des voitures dans les villes, les parents n'auront pas peur de libérer leurs enfants seuls.

A) Vrai B) Faux

**İzah:** *Verilmiş cümlədə, maşınlara qoyulan qadağalardan sonra valideynlər öz övladlarının tək küçəyə çıxmasından qorxmayacaqlar fikri qeyd olunur. Mətndə də bu fikir öz əksini tapır* (Les parents se trouvent alors libérés de la peur de laisser leurs enfants sans surveillance dans la jungle urbaine). *Buna görə də, bu fikir* ***doğrudur****.*

**A variantı 12 saylı test tapşırığı**
**B variantı 14 saylı test tapşırığı**
**C variantı 13 saylı test tapşırığı**
**D variantı 13 saylı test tapşırığı**

**12.** Choisissez l'équivalent de l'expression souligné dans le texte.

A) ce choix est oublié
B) les habitants réussissent
C) les parkings sont créés dans les villes
D) cette interdiction est annulée
E cette initiative est réalisée

**İzah:** *Bu test tapşırığında mətndə altından xətt çəkilmiş ifadənin ekvivalentini müəyyən etmək tələb olunur. Hərfi tərcüməsinə əsasən "mərc" mənasını verən* **«pari»** *sözü, bu kontekstdə irəli sürülən ideya mənasına uyğun gəlir. Buna ekvivalent olaraq "bu təşəbbüsün uğurlu olacağı" (həyata keçəcəyi) ifadələri eynilik təşkil edir. Beləliklə,* **« cette initiative est réalisée »** *fikrinin qeyd olunduğu bənd* ***doğru*** *cavabdır.*

**A variantı 13 saylı test tapşırığı**
**B variantı 13 saylı test tapşırığı**
**C variantı 14 saylı test tapşırığı**
**D variantı 14 saylı test tapşırığı**

**13.** Complétez la phrase d'après le texte.
*Des places de stationnement … .*
A) occupent moins de territoires
B) sont plus importantes dans la ville
C) offrent une liberté de mouvement sécurisée
D) sont surveillées par le gouvernement
E sont plus pleines que les routes

**İzah:** *Bu test tapşırığında verilmiş cümləni tamamlamaq tələb olunur. Mətndə vurğulanır ki, dayanacaqlarda maşınların sayı yollarda hərəkət edən maşınlara nisbətdə daha çoxdur* (La plus grande partie d'entre elles n'est pas en circulation mais en stationnement). *Buna görə də,* «**sont plus pleines que les routes** » *fikrinin qeyd olunduğu bənd* ***doğru*** *cavabdır.*

**A variantı 14 saylı test tapşırığı**
**B variantı 12 saylı test tapşırığı**
**C variantı 12 saylı test tapşırığı**
**D variantı 12 saylı test tapşırığı**

**14.** Quelle question ***n'a pas*** de réponse dans le texte?
A) Quels types de pollution les voitures causent-elles ?
B) Avec l'interdiction des voitures quels territoires pourraient-ils gagner une nouvelle vie ?
C) Qu'est-ce qui se passerait si on interdisait les voitures dans les villes ?
D) Quels sont les dangers que représentent les voitures en villes ?
E Dans quelle ville y a-t-il plus de voitures ?

**İzah:** *Bu test tapşırığında, mətnə əsasən hansı sualın cavabının mətndə verilmədiyi soruşulur. Mətndə spesifik bir şəhər haqqında məlumat yoxdur. Buna görə də,* « **Dans quelle ville y a-t-il plus de voitures ?** » *sualının verildiyi bənd* ***doğru*** *cavabdır.*

**A variantı 15 saylı test tapşırığı**
**B variantı 15 saylı test tapşırığı**
**C variantı 15 saylı test tapşırığı**
**D variantı 15 saylı test tapşırığı**

**15.** Choisissez les idées correctes d'après le texte.
1. En cas d'interdiction des voitures, il est nécessaire de créer des parkings dans les centres-villes.
2. Avec l'interdiction des voitures, les villes peuvent diriger ses dépenses financières dans les autres domaines.
3. Il est conseillé d'interdire la voiture uniquement dans les capitales.
4. Cette interdiction va avoir une influence positive sur l'environnement.

**İzah:** *Bu seçim tipli tapşırıqda mətnə əsasən doğru fikirləri seçmək tələb olunur. Mətndə qeyd olunur ki, maşınlara qoyulan qadağalar sayəsində şəhərlər öz maliyyə xərclərini başqa sektorlar üçün istifadə edə biləcək. Bununla yanaşı, maşınların ətraf mühitə olan zərərləri aradan qalxmış olacaq. Mətndə verilmiş məlumatlara əsasən (*cela peut aider à réduire les dépenses financières), (aurait donc pour conséquence une amélioration considérable de l'air. De plus, c'est aussi la pollution sonore qui serait fortement réduite) **2 və 4-cü** *bəndlərdə qeyd olunan fikirlər* ***doğru*** *cavablardırlar.*

**A variantı 16 saylı test tapşırığı**
**B variantı 17 saylı test tapşırığı**
**C variantı 18 saylı test tapşırığı**
**D variantı 17 saylı test tapşırığı**

**16.** Choisissez les phrases à la voix passive.
1. L'imprimerie a été inventée par Gutenberg.
2. La voiture était une bonne invention de son époque.
3. Les voleurs sont entrés par la fenêtre.
4. Nous sommes allés par une petite route étroite.
5. Notre maison est entourée d'un grand jardin.

A 1, 5
B) 2, 5
C) 3, 5
D) 1, 2, 4
E) 2, 3, 4

**İzah:** *Bu qrammatik test tapşırığında məchul növdə işlənmiş cümlələri seçmək tələb olunur. Qaydaya əsasən feilin məchul növü être feili + feili sifət strukturu ilə düzəlir və icraçı tamamlıq göstərildiyi halda* « **par** » *və yaxud* « **de** » *sözlərindən istifadə edilir. Bu qaydadan çıxış etsək doğru cavab kimi* «**L'imprimerie a été inventée par Gutenberg** » *və* « **Notre maison est entourée d'un grand jardin** » *cümlələri* ***düzgün*** *variant olaraq qeyd olunmalıdır. Digər variantlar isə məlum növdədir.* « *La voiture*

*était une bonne invention de son époque » cümləsində « être » feili işlənsə də feili sifət işlənməyib. « Les voleurs sont entrés par la fenêtre », « Nous sommes allés par une petite route étroite » cümlələrində isə «être» feili passé composé zamanında işlənib. Bu cümlələrdə verilən « par » isə icraçı tamamlığı göstərən söz deyil, vasitə mənasını daşıyır.*

**A variantı 17 saylı test tapşırığı**
**B variantı 20 saylı test tapşırığı**
**C variantı 17 saylı test tapşırığı**
**D variantı 16 saylı test tapşırığı**

**17.** Formez un texte.

1. On peut dire, finalement, que les longues promenades dans la nature sont toujours agréables.
2. En juillet, ma famille et moi, nous irons dans le Sud de la France. Nous visiterons les calanques de Marseille.
3. Avec l'arrivée de l'été, je commence à réfléchir à des projets de vacances.
4. C'est un endroit magnifique pour la baignade et l'escalade.
5. Et en août, nous y passerons peut-être quelques jours.
6. Mes grands-parents ont un très bon chalet à la montagne.

A) 1, 6, 4, 2, 5, 3 B) 5, 3, 2, 4, 1, 6
C) 2, 1, 3, 5, 6, 4 D 3, 2, 4, 6, 5, 1
E) 4, 6, 3, 5, 1, 2

**İzah:** *Bu test tapşırığında verilmiş cümlələri məna baxımından ardıcıl düzərək mətn qurmaq tələb olunur.* ***3, 2, 4, 6, 5, 1*** *ardıcıllığı* ***düzgün*** *cavabdır. Məntiqi sıralanmaya əsasən ilk öncə cümlədə yayın gəlişi ilə tətil proqramı qurulur (3-cü cümlə), ailə ilə birlikdə yay ayında cənubi Fransaya gediləcəyi qeyd olunur (2-ci cümlə), gediləcək yerin təsviri verilir (4-cü cümlə), həmin yerdə nənə-babanın evi olduğu qeyd edilir (6-cı cümlə), avqust ayında orada bir-neçə gün keçiriləcəyi ehtimal olunduğu bildirilir və nəticədə (« finalement » sözü ilə) təbiətdə həmişə gəzintinin gözəl olduğu bildirilir.*

**A variantı 18 saylı test tapşırığı**
**B variantı 18 saylı test tapşırığı**
**C variantı 16 saylı test tapşırığı**
**D variantı 19 saylı test tapşırığı**

**18.** Choisissez la série logique.

*Je ne partirai pas cet été en France, ... .*

A) parce qu'il y a beaucoup de curiosités
B) parce que j'ai des vacances
C) parce que c'est mon pays préféré
D) parce que je n'ai jamais visité ce pays
E parce que je dois participer à la compétition sportive

**İzah:** *Bu test tapşırığında məntiqi baxımdan cümləni tamamlamaq tələb olunur. "Mən bu yay Fransaya getməyəcəm" ifadəsində Fransaya getməmək səbəbinin məntiqi cavabı* **« parce que je dois participer à la compétition sportive »** *variantı olmalıdır, çünki idman yarışlarında iştirak etməli olduğu üçün Fransaya gedə bilməmək məntiqli açıqlamadır. Digər variantlarda « görməli çoxlu yerlər var », « tətilim var », « mənim üstünlük verdiyim ölkədir », « mən heç vaxt Fransada olmamışam » cümlələri getməmək səbəbi kimi qəbul edilə bilməz.*

**A variantı 19 saylı test tapşırığı**
**B variantı 16 saylı test tapşırığı**
**C variantı 20 saylı test tapşırığı**
**D variantı 18 saylı test tapşırığı**

**19.** Choisissez la préposition qui convient.

*Je circulais … vélo dans la capitale … l'image d'Astérix … résister aux puissants de ce régime.*

A) en, sans, à B à, avec, pour
C) pour, loin de, comme D) sans, contre, de
E) autour de, vers, de

**İzah:** *Bu qrammatik test tapşırığında nöqtələrin yerinə uyğun sözönülər olan sıranı seçmək tələb olunur. Doğru cavab* **« à, avec, pour »** *ardıcıllığından ibarət olan variantdır. Çünki qaydaya əsasən* ***« vélo »*** *sözü* ***« à »*** *sözönü ilə işlənir. « Asteriks şəkilləri ilə » mənasına uyğun gələn hissədə* ***« avec »*** *və sonuncu yerdə* ***« pour »*** *(bu rejimə qarşı müqavimət göstərmək üçün) sözönüləri həm məna baxımından, həm də qrammatik baxımdan* ***doğru*** *cavab kimi qəbul olunur.*

**A variantı 20 saylı test tapşırığı**
**B variantı 19 saylı test tapşırığı**
**C variantı 19 saylı test tapşırığı**
**D variantı 20 saylı test tapşırığı**

**20.** Choisissez la bonne série.

*– Vous sortez souvent?*
*– Je ne sors ... .*

1. personne
2. pas du tout
3. jamais
4. rien

A) 2, 4 B) 3, 4 C) 1, 2 D 2, 3 E) 1, 3

**İzah**: *Dialoq şəklində qurulmuş bu testdə verilmiş cümləni inkar hissəciklərlə tamamlamaq tələb olunur.* « **Personne** » *(heç kim),* « **rien** » *(heç nə) nə məna, nə də ki, qarammatik baxımından uyğun gəlmir, çünki* « **souvent** » *sözünün inkarda qarşılığı bu sözlərlə verilə bilməz. Məna baxımından « Mən ümumiyyətlə çıxmıram », « Mən heç vaxt çıxmıram » mənasını daşıyan variantlar* « **pas du tout** » *və* « **jamais** » *sözləri ilə verilə bilər.*

# İnformatika üzrə bilikləri yoxlayan test tapşırıqları

**A variantı 21 saylı test tapşırığı**
**B variantı 37 saylı test tapşırığı**
**C variantı 25 saylı test tapşırığı**
**D variantı 33 saylı test tapşırığı**

Doğru ***olmayan*** mülahizəni müəyyən edin (Word 2019).

A) Ctrl + End düymələr kombinasiyası kursorun mövqeyini cari sətrin sonuna dəyişir.
B) Window (Окно/Pəncərə) lent qrupu View (Вид/Görünüş) tabında yerləşir.
C) Mövcud sənədi açmaq üçün File (Файл/Fayl) tabının Open (Открыть/Aç) əmri istifadə olunur.
D) Ctrl +A düymələr kombinasiyası bütün sənəd mətnini seçir.
E) Ctrl + F4 düymələr kombinasiyası sənəd pəncərəsini bağlayır.

**İzah:** Ctrl+End düymələr kombinasiyası kursorun mövqeyini cari sətrin sonuna yox, sənədin sonuna dəyişir.
**Doğru cavab:** Ctrl + End düymələr kombinasiyası kursorun mövqeyini cari sətrin sonuna dəyişir.

**A variantı 22 saylı test tapşırığı**
**B variantı 33 saylı test tapşırığı**
**C variantı 28 saylı test tapşırığı**
**D variantı 40 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

1. $1X9_{16} = 28X_{10}$
2. $1100X000_2 = 192_{10}$
3. $X5_{10} = 2X_{16}$

a. X = 4
b. X = 3
c. X = 1
d. X = 0
e. X = 5

A) 1 – c; 2 – d; 3 – a
B) 1 – c; 2 – d; 3 – b
C) 1 – a; 2 – d; 3 – b
D) 1 – d; 2 – c; 3 – a
E) 1 – d; 2 – c; 3 – e

**İzah:** 1) $1X9_{16}=28X_{10}$, burada, $1\cdot16^2+X\cdot16^1+9\cdot16^0= 2\cdot10^2+ 8\cdot10^1+X\cdot10^0$ olduğu üçün X=1.
2) $1100X000_2=192_{10}$, burada, $192_{10}=1\cdot2^7+1\cdot2^6+0\cdot2^5+0\cdot2^4+0\cdot2^3+0\cdot2^2+0\cdot2^1+0\cdot2^0=11000000_2$ olduğu üçün X=0.
3) $X5_{10}=2X_{16}$, burada, $X\cdot10^1+5\cdot10^0=2\cdot16^1+X\cdot16^0$ olduğu üçün X=3.
**Doğru cavab:** 1 – c; 2 – d; 3 – b.

**A variantı 23 saylı test tapşırığı**
**B variantı 34 saylı test tapşırığı**
**C variantı 29 saylı test tapşırığı**
**D variantı 28 saylı test tapşırığı**

Aşağıdakı cümlə şriftin hansı stili ilə yazılıb (Word 2019)?

**<u>İnformatika mənim sevimli fənnimdir.</u>**

A) Bold (Полужирный/Qalın), Underline (Подчеркнутый/Altından xətt)
B) Bold (Полужирный/Qalın), Strikethrough (Зачеркнутый/Üstüxətli)
C) Italic (Курсив/Kursiv), Strikethrough (Зачеркнутый/Üstüxətli)
D) Italic (Курсив/Kursiv), Bold (Полужирный/Qalın)
E) Underline (Подчеркнутый/Altından xətt), Italic (Курсив/Kursiv)

**İzah:** Qeyd olunmuş mətn fraqmenti üçün Home (Главная/Ev) tabının Font (Шрифт/Şrift) qrupunun düymələrindən istifadə etməklə aşağıdakı əməliyyatları icra etmək olar: Bold (Полужирный/Qalın) (Ctrl+B) – qeyd olunmuş mətni qalın şriftlə verir. Italic (Курсив/Kursiv) (Ctrl+I) – qeyd olunmuş mətni kursiv şriftlə verir. Underline (Подчеркнутый/Altından xətt) (Ctrl+U) – qeyd olunmuş mətnin altından xətt çəkir. Strikethrough (Зачеркнутый/Üstüxətli) – seçilmiş simvolların ortasından keçən xətt çəkir.




Şəkildən göründüyü kimi bu mətnə  Bold (Полужирный/Qalın) və  Underline (Подчеркнутый/Altından xətt) tətbiq olunub.

**Doğru cavab:** Bold (Полужирный/Qalın), Underline (Подчеркнутый/Altından xətt).

**A variantı 24 saylı test tapşırığı**
**B variantı 26 saylı test tapşırığı**
**C variantı 24 saylı test tapşırığı**
**D variantı 23 saylı test tapşırığı**

Hansı halda fayl .ppsx genişlənməsi ilə yadda saxlanılır (PowerPoint 2019)?

A) təqdimatların slaydlarını qrafik redaktorda istifadə etmək nəzərdə tutulduqda
B) təqdimatların slaydlarını və ya onların strukturunu dəyişdirmək lazım gəldikdə
C) təqdimatların slaydlarını struktur rejimində yaddaşda saxlamaq lazım gəldikdə
D) təqdimatların slaydlarını müəyyən şablon şəklində yaddaşda saxlamaq lazım gəldikdə
E) təqdimatların slaydlarını bilavasitə nümayiş etdirmək nəzərdə tutulduqda

**İzah:** Təqdimat faylları birbaşa nümayiş məqsədilə PowerPoint Show (Демонстрация PowerPoint/PowerPoint Nümayişi) tipli fayllar –.ppsx kimi yadda saxlanılır.

**Doğru cavab:** təqdimatların slaydlarını bilavasitə nümayiş etdirmək nəzərdə tutulduqda.

**A variantı 25 saylı test tapşırığı**
**B variantı 25 saylı test tapşırığı**
**C variantı 27 saylı test tapşırığı**
**D variantı 25 saylı test tapşırığı**

MS Office paketində hazırlanmış sənəd fayllarının kontekst menyusuna hansılar aiddir (Windows 10)?

1. Create shortcut (Создать ярлык/Qısayol yarat)
2. Send to (Отправить/Göndər)
3. Personalize (Персонализация/Fərdiləşdir)
4. Pin to Start (Закрепить на начальном экране/Başlat menyusuna bərkit)
5. Include in library (Добавить в библиотеку/Kitabxanaya əlavə et)
6. Rename (Переименовать/Adı dəyişdir)
7. Paste (Вставить/Əlavə et)

A) 3, 5, 7 B) 1, 3, 4, 7 C) 1, 2, 6
D) 3, 4, 5, 6 E) 1, 2, 4

**İzah:** MS Office paketində hazırlanmış sənəd faylının üzərində siçanın sağ düyməsini kliklədikdə şəkildəki kimi kontekst menyu açılır:




**Doğru cavab:**1, 2, 6.

**A variantı 26 saylı test tapşırığı**
**B variantı 39 saylı test tapşırığı**
**C variantı 26 saylı test tapşırığı**
**D variantı 31 saylı test tapşırığı**
Drayverlər … proqramlardır.
A) kompüterə qoşulmuş qurğuların işini idarə edən
B) verilənlərin bir formatdan digərinə keçirilməsini yerinə yetirən
C) şəbəkədə olan kompüterlər arasında məlumatlar mübadiləsini təmin edən
D) istifadəçiyə bir sıra əlavə xidmətlər təqdim edən
E) tətbiqi proqramların yerinə yetirilməsi prosesini idarə edən
**İzah:** Drayverlər – kompüterə qoşulmuş qurğuları əməliyyat sisteminə tanıdan və həmin qurğuların işini idarə edən proqramlardır.
**Doğru cavab:** kompüterə qoşulmuş qurğuların işini idarə edən.

**A variantı 27 saylı test tapşırığı**
**B variantı 29 saylı test tapşırığı**
**C variantı 30 saylı test tapşırığı**
**D variantı 27 saylı test tapşırığı**
1-dən 5-dək olan tam ədədləri (1 və 5 daxil olmaqla) çap edən alqoritmin blok-sxemini müəyyən edin.
A)


B)


C)


D)


E)


**İzah:**




blok-sxem ilə verilmiş alqoritmin icrası nəticəsində ardıcıl olaraq 2, 3, 4, 5, 6 ədədləri çap olunar.




blok-sxem ilə verilmiş alqoritmin icrası nəticəsində yalnız 1 ədədi çap olunar.




blok-sxem ilə verilmiş alqoritmin icrası nəticəsində ardıcıl olaraq 1, 2, 3, 4 ədədləri çap olunar.




blok-sxem ilə verilmiş alqoritmin icrası nəticəsində ardıcıl olaraq 1, 2, 3, 4, 5 ədədləri çap olunar.




blok-sxem ilə verilmiş alqoritmin icrası nəticəsində isə ardıcıl olaraq 2, 3, 4, 5 ədədləri çap olunar.

**Doğru cavab:**



**A variantı 28 saylı test tapşırığı**
**B variantı 30 saylı test tapşırığı**
**C variantı 33 saylı test tapşırığı**
**D variantı 37 saylı test tapşırığı**

... dedikdə, riyazi hesablamalar əsasında avtomatik generasiya olunan təsvirlərin yaradılması başa düşülür. Onların əsas xassəsi özünə oxşarlıqdır, yəni müəyyən olunmuş xüsusi bir hissə bütün təsvir haqqında ümumi təsəvvür yaratmağa imkan verir.

A) Rastr qrafikası B) Üçölçülü qrafika
C) Dövri qrafika D) Vektor qrafikası
E) Fraktal qrafika

**İzah:** Fraktal qrafika dedikdə, riyazi hesablamalar əsasında avtomatik generasiya olunan təsvirlərin yaradılması başa düşülür. Fraktalın əsas xassəsi özünə oxşarlığıdır. Belə ki, fraktalın müəyyən olunmuş xüsusi bir hissəsi bütün fraktal haqqında ümumi təsəvvür yaratmağa imkan verir.

**Doğru cavab:** Fraktal qrafika.

**A variantı 29 saylı test tapşırığı**
**B variantı 31 saylı test tapşırığı**
**C variantı 21 saylı test tapşırığı**
**D variantı 38 saylı test tapşırığı**

Doğru mülahizələri müəyyən edin (Word 2019).

1. Seçilmiş obyektin səhifədə mövqeyini Design (Конструктор/Tərtibat) tabından müəyyən etmək olar.
2. İki sənədin avtomatik müqayisəsi View (Вид/Görünüş) tabından mümkündür.
3. Quick Access Toolbar (Панель быстрого доступа/Cəld Müraciət Paneli) alətlər panelinə File (Файл/Fayl) tabından alət əlavə etmək olar.
4. File (Файл/Fayl) tabından sənədi düzəlişlərdən mühafizə etmək olar.
5. Sənəddəki qrafik, cədvəl, düstur və şərhlərin axtarışı View (Вид/Görünüş) tabındakı Navigation Pane (Область навигации/Naviqasiya paneli) parametrini seçməklə mümkündür.
6. References (Ссылки/İstinadlar) tabından sənəddə edilmiş düzəlişləri qəbul etmək və ya onlardan imtina etmək mümkündür.

A) 1, 2, 6 B) 2, 4, 5 C) 1, 3, 6
D) 1, 2, 3 E) 3, 4, 5

**İzah:** İzahları verib hər birini uyğun mühakimə ilə müqayisə edək.

1. Seçilmiş obyektin səhifədə mövqeyini Layout (Макет/Düzən) tabından müəyyən etmək olar. Tapşırıqda verilmiş mühakimə səhvdir.
2. İki sənədin avtomatik müqayisəsi Review (Рецензирование/İcmal) tabından mümkündür. Tapşırıqda verilmiş mühakimə səhvdir.
3. Quick Access Toolbar (Панель быстрого доступа/Cəld Müraciət Paneli) alətlər panelinə File (Файл/Fayl) tabından alət əlavə etmək olar. Tapşırıqda verilmiş mühakimə doğrudur.
4. File (Файл/Fayl) tabından sənədi düzəlişlərdən mühafizə etmək olar. Tapşırıqda verilmiş mühakimə doğrudur.
5. Sənəddəki qrafik, cədvəl, düstur və şərhlərin axtarışı View (Вид/Görünüş) tabındakı Navigation Pane (Область навигации/Naviqasiya paneli) parametrini seçməklə mümkündür. Tapşırıqda verilmiş mühakimə doğrudur.
6. Review (Рецензирование/İcmal) tabından sənəddə edilmiş düzəlişləri qəbul etmək və ya onlardan imtina etmək mümkündür. Tapşırıqda verilmiş mühakimə səhvdir.

**Doğru cavab:**3, 4, 5.

**A variantı 30 saylı test tapşırığı**
**B variantı 38 saylı test tapşırığı**
**C variantı 37 saylı test tapşırığı**
**D variantı 26 saylı test tapşırığı**

Aşağıda tələbələr və onların yazıldığı fənlər haqqında verilənlər bazası cədvəllərindən fraqmentlər verilmişdir:

| **ID_Tələbə** | **Soyad A.A.** | **Kurs** | **Növbə** |
|---|---|---|---|
| 111 | Quliyev S.A. | 3 | I |
| 112 | Rüstəmli R.Q. | 3 | II |
| 113 | Əliyev T.Y. | 2 | II |
| 114 | Babayeva K.F. | 3 | I |
| 115 | Kərimov A.L. | 3 | II |
| 116 | Əsədova C.V. | 2 | I |
| 117 | Əzizov X.Z. | 4 | II |
| 118 | Abbasov A.T. | 3 | II |

| **ID_Tələbə** | **Fənn** |
|---|---|
| 116 | İnformatika |
| 117 | Riyaziyyat |
| 112 | İnformatika |
| 113 | İnformatika |
| 114 | Tarix |
| 115 | İnformatika |
| 112 | Tarix |
| 114 | İnformatika |
| 118 | İnformatika |
| 111 | Riyaziyyat |

Cədvəl fraqmentlərinə əsasən "İnformatika" fənni üzrə 3-cü kurs tələbələrindən neçəsinin II növbəyə yazıldığını müəyyən edin.

A) 4 B) 1 C) 3 D) 5 E) 2

**İzah:** Cədvəl fraqmentlərindən göründüyü kimi ID_Tələbə sütunundan görünür ki, ID-nömrələri 116, 112, 113, 115, 114 və 118 olan tələbələr "İnformatika" fənninə yazılıblar. Yalnız ID-nömrələri 112, 115 və 118 olan tələbələr 3-cü kurs tələbələridir və II növbəyə yazılmışlar.

**Doğru cavab:** 3.

**A variantı 31 saylı test tapşırığı**
**B variantı 24 saylı test tapşırığı**
**C variantı 36 saylı test tapşırığı**
**D variantı 32 saylı test tapşırığı**

Microsoft Excel 2019 proqramı hansı proqramlar qrupuna aiddir?

A) instrumental B) standart C) tətbiqi
D) xidməti E) sistem

**İzah:** Tətbiqi proqram paketləri (TPP) müəyyən sinif məsələlərin həlli üçün təyin olunmuş kompleks proqramlardır. Cədvəl emalı üçün təyin olunan TPP-lər elektron cədvəllər adlanır. Elektron cədvəllərin yaradılmasına və onun verilənlərinin manipulyasiyasına imkan verən proqram paketləri cədvəl prosessorları adlanır. Bu paketlərdən ən geniş yayılanı və istifadə olunanı Lotus 1-2-3, Quatro-Pro, SuperCalc və Microsoft Office paketinə daxil edilmiş Microsoft Excel proqramlarıdır.

**Doğru cavab:** tətbiqi.

**A variantı 32 saylı test tapşırığı**
**B variantı 22 saylı test tapşırığı**
**C variantı 32 saylı test tapşırığı**
**D variantı 24 saylı test tapşırığı**

Styles (Стили/Üslublar) lent qrupu hansı lent tabında yerləşir (Word 2019)?

A) Design (Конструктор/Tərtibat) B) View (Вид/Görünüş)
C) Insert (Вставка/Əlavə et) D) Home (Главная/Ev) E) Layout (Макет/Düzən)

**İzah:** Home (Главная/Ev) tabında mətnlərin redaktəsi və formatlaşdırılması üçün 5 tip lent qrupu mövcuddur: Clipboard (Буфер обмена/Mübadilə Buferi), Font (Шрифт/Şrift), Paragraph (Абзац/Abzas), Styles (Стили/Üslublar), Editing (Редактирование/Redaktə).




**Doğru cavab:** Home (Главная/Ev).

**A variantı 33 saylı test tapşırığı**
**B variantı 28 saylı test tapşırığı**
**C variantı 23 saylı test tapşırığı**
**D variantı 30 saylı test tapşırığı**

Arxiv fayllarının ad genişlənməsini müəyyən edin.

A) .rtf B) .wav C) .com D) .arj E) .bat

**İzah:** ".zip", ".rar", ".arj", ".tar", ".jar", ".cab", ".lrh" – arxiv fayllarının ad genişlənməsini göstərir.

**Doğru cavab:**.arj.

**A variantı 34 saylı test tapşırığı**
**B variantı 40 saylı test tapşırığı**
**C variantı 39 saylı test tapşırığı**
**D variantı 34 saylı test tapşırığı**

Qabarit ölçüləri və məhsuldarlığına görə kompüter (EHM) siniflərinə aid ***olmayanları*** müəyyən edin.

1. işçi stansiyalar
2. mini kompüterlər
3. kliyent kompüterlər
4. super kompüterlər
5. meynfreymlər
6. terminallar

A) 2, 3, 5 B) 1, 4, 6 C) 1, 3, 6
D) 2, 4, 5 E) 1, 3, 5

**İzah:** Qabarit ölçülərinə və məhsuldarlığına görə kompüterlər aşağıdakı siniflərə bölünür:

- çox böyük (super) kompüterlər;
- böyük kompüterlər (MAIN FRAME);
- orta kompüterlər;
- kiçik (mini) kompüterlər;
- mikrokompüterlər.

**Doğru cavab:** 1, 3, 6.

**A variantı 35 saylı test tapşırığı**
**B variantı 36 saylı test tapşırığı**
**C variantı 35 saylı test tapşırığı**
**D variantı 29 saylı test tapşırığı**

Kompüterin xarici yaddaş qurğularına aiddir:

1. CMOS-yaddaş
2. sərt disk
3. strimer
4. kompakt-disk
5. keş-yaddaş
6. daimi yaddaş
7. fləş-kart
8. əməli yaddaş

A) 2, 3, 6, 7 B) 1, 5, 6, 8 C) 2, 3, 4, 7
D) 2, 3, 5, 7 E) 1, 4, 5, 8

**İzah:** Yaddaş daxili və xarici olmaqla iki yerə bölünür. Daxili yaddaşa aşağıdakılar aiddir: əməli yaddaş, daimi yaddaş, keş-yaddaş, CMOS-yaddaş, fləş-yaddaş, videoyaddaş. Xarici yaddaşa isə aşağıdakılar aiddir: elastik maqnit diskləri (FDD, disketlər), kompakt-disklər (CD, DVD), fləş-kartlar, sərt disk (HDD, vinçester), maqnit lentləri (strimerlər) və s.

**Doğru cavab:** 2, 3, 4, 7.

**A variantı 36 saylı test tapşırığı**
**B variantı 35 saylı test tapşırığı**
**C variantı 31 saylı test tapşırığı**
**D variantı 22 saylı test tapşırığı**

Elektron cədvəldə B sütununun enini həmin sütunda yerləşən ən uzun mətnin eni ilə necə bərabərləşdirmək olar (Excel 2019)?

A) siçanın sol düyməsini A və B sütun başlıqlarının sərhədi üzərində ikiqat klikləməklə
B) siçanın sol düyməsi ilə A və B sütun başlıqları arasındakı sərhədi sola doğru dartmaqla
C) siçanın sol düyməsini B və C sütun başlıqlarının sərhədi üzərində ikiqat klikləməklə
D) siçanın sağ düyməsini B sütununun başlığı üzərində ikiqat klikləməklə
E) siçanın sol düyməsini B sütununun başlığı üzərində ikiqat klikləməklə

**İzah:** Sütunun enini xananın məzmununa uyğunlaşdırmaq üçün Home (Главная/Ev) tabının Cells (Ячейки/Xanalar) lent qrupunun Format (Формат/Format) aşağı açılan siyahı düyməsini klikləməklə açılan siyahıdakı AutoFit Column Width (Автоподбор ширины столбца/Sütunun Enini AvtoSığışdır) əmrindən istifadə etmək və ya həmin sütun ilə sağ qonşu sütunun başlıqlarının sərhədi üzərində siçanın sol düyməsini ikiqat klikləmək lazımdır.




**Doğru cavab:** siçanın sol düyməsini B və C sütun başlıqlarının sərhədi üzərində ikiqat klikləməklə.

**A variantı 37 saylı test tapşırığı**
**B variantı 23 saylı test tapşırığı**
**C variantı 34 saylı test tapşırığı**
**D variantı 21 saylı test tapşırığı**

Forma ilə işləmək rejimləridir (Access 2019):

1. **Default View** (Режим по умолчанию/Susmaya görə Görünüş)
2. **Layout View** (Режим макета/Düzən Görünüşü)
3. **Report View** (Представление отчета/Hesabat Görünüşü)
4. **Print Preview** (Предварительный просмотр/Çapa Önbaxış)
5. **Design View** (Режим конструктора/Tərtibat Görünüşü)
6. **Datasheet View** (Режим таблицы/Cədvəl Görünüşü)
7. **Query View** (Режим запросы/Sorğu Görünüşü)

A) 1, 2, 4 B) 2, 5, 6 C) 1, 3, 7
D) 3, 5, 6 E) 2, 4, 7

**İzah:** MS Access verilənlər bazasının obyektlərindən ən çox görünüş rejimi olan formadır. Formanın aşağıdakı görünüş rejimləri vardır:




Form View (Режим формы/Forma Görünüşü) istifadəçinin forma ilə işlədiyi əsas rejimdir;
Layout View (Режим макета/Düzən Görünüşü) forma düzəninin interaktiv sazlanması rejimidir;
Design View (Режим конструктора/Tərtibat Görünüşü) formanın yaradılması və elementlərlə birlikdə onun sazlanması üçün nəzərdə tutulmuşdur;
Datasheet View (Режим таблицы/Cədvəl Görünüşü) bu rejimdə formadakı verilənlər sahələri cədvəl şəklində təqdim olunur.
**Doğru cavab:** 2, 5, 6.

**A variantı 38 saylı test tapşırığı**
**B variantı 27 saylı test tapşırığı**
**C variantı 22 saylı test tapşırığı**
**D variantı 36 saylı test tapşırığı**

Doğru ***olmayan*** mülahizələri müəyyən edin.

1. Əməli yaddaşda verilənlər müvəqqəti saxlanılır.
2. Qrafik planşet daxiletmə qurğusudur.
3. Keş-yaddaş böyük tutumlu aşağı sürətli yaddaşdır.
4. Skaner xaricetmə qurğusudur.
5. CMOS-yaddaş enerjidən asılı olan yaddaşdır.

A) 1, 2, 5 B) 1, 4, 5 C) 1, 2, 3
D) 3, 4, 5 E) 2, 3, 4

**İzah:** İzahları verib hər birini uyğun mühakimə ilə müqayisə edək.

1. Əməli yaddaşda verilənlər müvəqqəti saxlanılır. Tapşırıqda verilmiş mühakimə doğrudur.
2. Qrafik planşet daxiletmə qurğusudur. Tapşırıqda verilmiş mühakimə doğrudur.
3. Prosessor və əməli yaddaş arasında verilənlərin mübadiləsi zamanı prosessorun işində yarana biləcək gecikmələrin təsirini azaltmaq üçün prosessor kiçik tutumlu və çox böyük sürətli yaddaşa – keş-yaddaşa malik olur. Tapşırıqda verilmiş mühakimə səhvdir.
4. Skaner kompüterə mətn, şəkil, cizgi və digər qrafik informasiyanı daxil etmək üçün istifadə olunan qurğudur. Tapşırıqda verilmiş mühakimə səhvdir.
5. CMOS-yaddaş batareya elementindən qidalanan enerjidən asılı olmayan yaddaşdır. Tapşırıqda verilmiş mühakimə səhvdir.

**Doğru cavab:** 3, 4, 5.

**A variantı 39 saylı test tapşırığı**
**B variantı 32 saylı test tapşırığı**
**C variantı 38 saylı test tapşırığı**
**D variantı 39 saylı test tapşırığı**

Cari slaydın obyektlərinə verilmiş animasiya effektinin ardıcıllığını dəyişmək üçün hansı lent tabından və lent qrupundan istifadə olunur (PowerPoint 2019)?

A) Transitions ▶ Transition to This Slide (Переходы ▶ Переход к этому слайду/Keçidlər ▶ Bu Slayda Keçid)
B) Transitions ▶ Timing (Переходы ▶ Время показа слайдов/Keçidlər ▶ Vaxt)
C) Animations ▶ Animation (Анимации ▶ Анимация/Animasiyalar ▶ Animasiya)
D) Animations ▶ Timing (Анимации ▶ Время показа слайдов/Animasiyalar ▶ Vaxt)
E) Design ▶ Customize (Конструктор ▶ Настроить/Tərtibat ▶ Sazla)

**İzah:** Slayd obyektlərinə animasiya effektləri lentin Animations (Анимация/Animasiyalar) tabının elementləri ilə əlavə edilir. Lentin Animations (Анимация/Animasiyalar) tabı Preview (Просмотр/Önbaxış), Animation (Анимация/Animasiya), Advanced Animation (Расширенная анимация/Təkmil Animasiya) və Timing (Время показа слайдов/Vaxt) lent qruplarından ibarətdir.




**Doğru cavab:** Animations ▶ Timing (Анимации ▶ Время показа слайдов/Animasiyalar ▶ Vaxt).

**A variantı 40 saylı test tapşırığı**
**B variantı 21 saylı test tapşırığı**
**C variantı 40 saylı test tapşırığı**
**D variantı 35 saylı test tapşırığı**

Bütün işçi stansiyaların vahid mərkəzə – konsentratora birləşdirildiyi lokal şəbəkə topologiyası necə adlanır?

A) şin B) ulduz C) konnektor
D) terminator E) halqavari

**İzah:** Kompüter şəbəkələrində bütün kompüterlər vahid mərkəzə qoşulduqda ulduzvari topologiya istifadə olunur. Ulduz formasına malik olan şəbəkədə kompüterlərarası əlaqələr bir yerdə toplandığı üçün ulduzvari şəbəkənin mərkəzini nüvə və ya konsentrator adlandırırlar.

**Doğru cavab:** ulduz.

**A variantı 41 saylı test tapşırığı**
**B variantı 43 saylı test tapşırığı**
**C variantı 43 saylı test tapşırığı**
**D variantı 43 saylı test tapşırığı**

Aşağıdakılardan hansılar MAC-ünvanlardır?

1. 11-AB-17-3D-BC-01
2. 2A-73-H5-22-24-AB
3. 11-AD-23-BC-3E
4. 24-A5-18-DC-2B-02
5. 2A-84-1B-BE-11F-63
6. 28-B3-7A-CA-DE

**İzah:** MAC-ünvanlar 48 bit (6 bayt) ikilik koddan və ya onaltılıq say sistemində göstərilmiş 2 rəqəmdən ibarət 6 ədəddən ibarətdir.

**Doğru cavab:** 1, 4.

**A variantı 42 saylı test tapşırığı**
**B variantı 41 saylı test tapşırığı**
**C variantı 42 saylı test tapşırığı**
**D variantı 44 saylı test tapşırığı**

Palitrasında 24 rəng olan 800x400 piksel ölçülü rastr qrafik təsvir rabitə kanalı ilə ötürülmə müddətinin ilk yarısında 16000 bit/san, qalan hissəsində isə 24000 bit/san sürəti ilə ötürülmüşdür. Bu qrafik təsvirin ötürülməsinə neçə saniyə sərf olunmuşdur?

**İzah:** Palitrada olan 24 rəng, yəni hər bir pikselin rənginin ola biləcəyi 24 mümkün variant üçün $2^4<24<2^5$ olduğundan Xartli düsturuna görə bir pikselin informasiya miqdarı 5 bit olar. Onda qrafik təsvirin informasiya həcmi 800x400x5 bit olar. Bu təsvirin rabitə kanalı ilə ötürülmə müddətini $t$ san. ilə işarə etsək, müddətin ilk yarısında $\frac{t}{2}\cdot 16000$ bit, digər yarısında isə $\frac{t}{2}\cdot 24000$ bit məlumat ötürülər. Ötürülən məlumat qrafik təsvirin informasiya həcminə bərabər olduğundan, $\frac{t}{2}\cdot 16000+\frac{t}{2}\cdot 24000=800\cdot 400\cdot 5$ yaza bilərik. Buradan $\frac{t}{2}\left(16000+24000\right)=800\cdot 400\cdot 5$ və ötürülmə müddətinin $t=\frac{800\cdot 400\cdot 5}{20000}=80$ san. olduğunu alarıq.

**Doğru cavab:** 80.

**A variantı 43 saylı test tapşırığı**
**B variantı 42 saylı test tapşırığı**
**C variantı 44 saylı test tapşırığı**
**D variantı 41 saylı test tapşırığı**

Cədvəl fraqmentinə əsasən A4 xanasındakı qiyməti müəyyən edin **(IF/ЕСЛИ, SUM/СУММ, PRODUCT/ПРОИЗВЕД, POWER/СТЕПЕНЬ)** (Excel 2019).

| | A | B | C |
|---|---|---|---|
| 1 | 5 | 7 | 3 |
| 2 | 1 | 6 | 2 |
| 3 | 3 | 2 | 4 |
| 4 | =IF(C3>=SUM(A2,B3),PRODUCT(A1,B2),POWER(C3,C1)) | | |

**İzah:** IF(logical_test,value_if_true,value_if_false)

ЕСЛИ(лог_выражение; значение_если_истина; значение_если_ложь) Logical_test (Лог_выражение) sətrində məsələnin şərti daxil edilir. Value_if_true (Значение_если_истина) sətrində, cavab doğru olan haldakı qiymət, Value_if_false (Значение_если_ложь) sətrinə isə cavab yalan olduğu haldakı qiymət daxil edilir.

SUM (СУММ) funksiyası verilmiş xanalar diapazonundakı ədədlərin cəmini tapır. Bu funksiyanın formatı aşağıdakı kimidir:

SUM (number 1; number 2;…; number N),

СУММ (число 1; число 2;…; число N)

burada number 1, number 2,…, number N - cəmlənən ədədlərdir.

PRODUCT (ПРОИЗВЕД) funksiyası arqument kimi verilən number1, [number2], ... ədədlərinin hasilini hesablayır. Bu funksiyanın formatı aşağıdakı kimidir:

PRODUCT (number1, [number2], ...)

ПРОИЗВЕД (число 1, [число 2],…)

burada number1, number2 ... hasili hesablanmalı olan ədədlər, məntiqi qiymət və ya mətn şəklində verilən ədədlərdir. Bu ədədlərin sayı 1-dən 255-ə qədər ola bilər.
POWER (СТЕПЕНЬ) funksiyası qüvvətə yüksəldilmiş ədədi qaytarır. Bu funksiyanın formatı aşağıdakı kimidir:
POWER (number, power);
СТЕПЕНЬ (число, степень);
burada number – qüvvətə yüksəldiləcək əsası, power isə qüvvəti bildirir.

C3=4 və C3≥A2+B3=3 olduğundan, yəni IF funksiyasındakı şərt ödəndiyindən, A4 xanasının qiyməti olaraq PRODUCT(A1,B2) funksiyasının qiyməti qəbul olunur: PRODUCT(A1,B2)= A1·B2=5·6=30.
**Doğru cavab:** 30.

**A variantı 44 saylı test tapşırığı**
**B variantı 44 saylı test tapşırığı**
**C variantı 41 saylı test tapşırığı**
**D variantı 42 saylı test tapşırığı**
Hansı adlardan faylın adı kimi istifadə etmək olar?
1. PRN.DOC
2. DOC.PRN
3. CON.TXT
4. NUL.EXE
5. DOC.EXE
6. EXE.NUL
7. NUL.PRN
8. EXE.DOC

**İzah:** MS-DOS əməliyyat sistemində işləyən MS-DOS qurğularını işarə etmək üçün müəyyən adlardan istifadə olunur ki, faylları adlandırarkən onlardan istifadə etmək olmaz. MS-DOS qurğularının adları aşağıdakılardır:
PRN – printer;
LPT1÷LPT9 – paralel portlar;
COM1÷COM9 – ardıcıl portlar;
AUX – 1 ardıcıl portuna birləşdirilən qurğu;
CON – giriş üçün-klaviatura, çıxış üçün-ekran;
NUL – "boş" qurğu.
Bu adlara hər hansı genişlənmə əlavə etdikdə MS-DOS əməliyyat sistemi bunu qurğulara müraciət kimi başa düşür. Məsələn, CON.TXT faylına müraciət CON qurğusuna müraciətlə eynidir. Ona görə də CON.TXT-dən faylın adı kimi istifadə etmək olmaz. Analoji qaydada PRN.DOC, NUL.EXE, NUL.PRN fayl adları ola bilməzlər. Lakin faylların adlarının genişlənməsində .PRN, .AUX, .CON və .NUL-dan istifadə etmək olar.
**Doğru cavab:** 2, 5, 6, 8.

**A variantı 45 saylı test tapşırığı**
**B variantı 45 saylı test tapşırığı**
**C variantı 45 saylı test tapşırığı**
**D variantı 45 saylı test tapşırığı**
Uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| 1. Sosial şəbəkə | a. Snapchat |
| 2. Brauzer | b. Safari |
| 3. Axtarış sistemi | c. QQ |
| | d. Firefox |
| | e. Bing |

**İzah:** Snapchat – mobil proqramlar sırasına aid edilən, məhdud zaman kəsiyində şəkilləri saxlayan, foto-çat tipli sosial şəbəkədir.
QQ – Çində məşhur olan ani zaman kəsiyində istifadəçilər arasında informasiya mübadiləsi yaratmağa xidmət edən sosial şəbəkədir.
İnternetin resurslarına müraciət edən proqramlar brauzerlər adlanır. Brauzerlərə Google Chrome, Mozilla Firefox, Opera, Safari və s. aiddir.
İnternetdə toplanılan informasiyaların strukturlaşdırılması və istifadəçiyə lazım olan verilənləri rahat şəkildə axtarılaraq təqdim edilməsi üçün axtarış sistemləri yaradılmışdır. İnternetdə axtarış sistemlərinə misal olaraq Google, Bing, Yahoo, Yandex və s. göstərmək olar.
**Doğru cavab:** 1 – a, c; 2 – b, d, 3 – e.

# Məntiqi təfəkkürü yoxlayan test tapşırıqları

**A variantı 46 saylı test tapşırığı**
**B variantı 84 saylı test tapşırığı**
**C variantı 79 saylı test tapşırığı**
**D variantı 55 saylı test tapşırığı**

Qanunauyğunluğu müəyyən edin və “?” əvəzinə uyğun variantı seçin.



A)  B)  C) 

D)  E) 

**Testin həlli**

Kvadratların hərəkətini aydın təsəvvür etmək üçün rəngli kvadratlardan birini göy, digərini isə qırmızı rəngləsək, onların hərəkətini aşağıdakı şəkildən izləmək olar.



Üst sıradakı 2 kvadrat yan tərəfə keçib aşağı, 2-ci sıradakı rəngli kvadrat aşağı 1 addım gedir. Alınan fiqur şaquli simmetriya oxu ətrafında simmetrik çevrilir. Yan tərəfdəkilər 3 addımdan sonra aşağı keçir, daxildəki rəngli kvadrat aşağıya çatandan sonra yuxarıya qalxmağa başlayır.

**Doğru cavab:** 

**A variantı 47 saylı test tapşırığı**
**B variantı 78 saylı test tapşırığı**
**C variantı 63 saylı test tapşırığı**
**D variantı 51 saylı test tapşırığı**

Verilən sözlər cütünə analoji əlaqəli olan natamam cütü tamamlayın.

*zərf – zərflik; feil – ?*

A) qrammatika B) sifət C) xəbər
D) iş E) hərəkət

**Testin həlli**

Sözlər cütünün 1-ci sözü nitq hissəsini, 2-ci sözü isə ona uyğun cümlə üzvünü göstərir.

***Doğru cavab:*** xəbər

**A variantı 48 saylı test tapşırığı**
**B variantı 54 saylı test tapşırığı**
**C variantı 73 saylı test tapşırığı**
**D variantı 56 saylı test tapşırığı**

Rəngli kağız aşağıdakı kimi qatlanıb kəsilmişdir. Kağızın açılışına müvafiq variantı tapın (qırıq xətlərlə kağızın qatlanmış hissələri göstərilib).



A) 

B) 

C) 

D) 

E) 

**Testin həlli**



Vərəq açıldıqda alınan vəziyyət aşağıdakı kimidir

**Doğru cavab:** 

**A variantı 49 saylı test tapşırığı**
**B variantı 72 saylı test tapşırığı**
**C variantı 80 saylı test tapşırığı**
**D variantı 57 saylı test tapşırığı**

Qanunauyğunluğu müəyyən edin və “?” əvəzinə uyğun variantı seçin.



A) 

B) 

C) 

D) 

E) 

**Testin həlli**

Soldan sağa hər addımda qara üçbucaq kiçilir, rəngsiz üçbucaq isə böyüyür.

**Doğru cavab:** 

**A variantı 50 saylı test tapşırığı**
**B variantı 71 saylı test tapşırığı**
**C variantı 47 saylı test tapşırığı**
**D variantı 81 saylı test tapşırığı**

Qanunauyğunluğu müəyyən edin və “?” əvəzinə uyğun olan variantı seçin.



→ 4; 3; 3; 3; 4; 4



→ 3; 3; 4; 2; 2; 4



→ ?

A) 3; 4; 4; 4; 3; 2
B) 2; 4; 3; 3; 4; 4
C) 2; 3; 4; 3; 4; 4
D) 3; 3; 4; 2; 4; 4
E) 4; 3; 3; 4; 4; 2

**Testin həlli**

| Komplektlər | S A Y L A R | | | | | |
|---|---|---|---|---|---|---|
| |  |  |  |  |  |  |
| 1-ci komplekt | 4 | 3 | 3 | 3 | 4 | 4 |
| 2-ci komplekt | 3 | 3 | 4 | 2 | 2 | 4 |
| 3-cü komplekt | 2 | 3 | 4 | 3 | 4 | 4 |

**Doğru cavab:** 2; 3; 4; 3; 4; 4

**A variantı 51 saylı test tapşırığı**
**B variantı 57 saylı test tapşırığı**
**C variantı 50 saylı test tapşırığı**
**D variantı 83 saylı test tapşırığı**

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun variantı seçin.

 ?

A) 
B) 
C) 
D) 
E) 

Testin həlli:
Soldan sağa hər bir addımda 5 fiqur arasından çevrə ilə əvəz olunanların sayı artır, qalan fiqurlar isə yeniləri ilə əvəz olunur.

**Doğru cavab:** 

**A variantı 52 saylı test tapşırığı**
**B variantı 62 saylı test tapşırığı**
**C variantı 48 saylı test tapşırığı**
**D variantı 58 saylı test tapşırığı**

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun olan variantı seçin.

$9a \lozenge 7b = 2a + b$
$11a \triangle 9b = 3a + b - 3$
$5a \square 8b = a - b + 5$
$(27 \lozenge 14) + (33 \triangle 18) - (15 \square 16) = ?$

A) 14 B) 13 C) 11 D) 10 E) 12

**Testin həlli**

$(27 \lozenge 14) + (33 \triangle 18) - (15 \square 16) = (9\cdot3) \lozenge (7\cdot2)+(11\cdot3) \triangle (9\cdot2) - (5\cdot3) \square (8\cdot2)=(2\cdot3+2)+(3\cdot3+2-3)-(3-2+5)=8+8-6=10$

**Doğru cavab:** 10

**A variantı 53 saylı test tapşırığı**
**B variantı 81 saylı test tapşırığı**
**C variantı 46 saylı test tapşırığı**
**D variantı 76 saylı test tapşırığı**

“ ? “ əvəzinə uyğun variantı tapın.



A) 

B) 

C) 

D) 

E) 

**Testin həlli**

Soldakı 2 şəklin üst-üstə qoyulmasından alınan vəziyyət, sağdakı 2-ci (“?” işarəsinin yerinə qoyulmalı olan) şəklin verilmiş şəkillə üst-üstə qoyulmasından alınan vəziyyətlər eyni olmalıdır.

**Doğru cavab:** 

**A variantı 54 saylı test tapşırığı**
**B variantı 83 saylı test tapşırığı**
**C variantı 84 saylı test tapşırığı**
**D variantı 75 saylı test tapşırığı**

40 nəfər tələbənin bir qismi yalnız fransız, bir qismi yalnız ispan, qalanı isə hər iki dili öyrənir. Məlumdur ki, tələbələrdən 7-si hər iki dili öyrənir. Əgər 25 tələbə fransız dilini öyrənirsə, neçə nəfər ispan dilini öyrənir?

A) 15 B) 17 C) 25 D) 18 E) 22

**Testin həlli**




Əgər 25 tələbə fransız dilini öyrənirsə, yalnız fransız dilini öyrənənlərin sayı 25-7=18-dir. İspan dilini öyrənənlərin sayı isə 40-18=22 nəfərdi.

**Doğru cavab:** 22

**A variantı 55 saylı test tapşırığı**
**B variantı 80 saylı test tapşırığı**
**C variantı 53 saylı test tapşırığı**
**D variantı 66 saylı test tapşırığı**

**55.** Agentlik gün ərzində turistlərin şəhərdəki yeddi muzeyə (F, G, H, L, M, P və T-yə) ekskursiyasını təşkil edir. Agentlik bu turun qrafikini tərtib edərkən aşağıdakıları nəzərə almalıdır:

♦ F gediləcək ilk üç muzeydən biri olmalıdır;
♦ G-yə H-dən dərhal sonra gedilməlidir;
♦ M gün ərzində gediləcək ya ilk, ya da son muzey olmalıdır;
♦ P gediləcək son üç muzeydən biri olmalıdır.

Əgər tərtib olunmuş qrafikə görə T, L və F ardıcıl (bu ardıcıllıqla bir-birindən dərhal sonra) ekskursiya olunacaq muzeylərdirsə, bu qrafikdə G neçənci yeri tutar?

A) II B) III C) V D) IV E) VI

**Testin həlli**

T, L və F ardıcıl ekskursiyaya gediləcək muzeylər olduğundan və F gediləcək ilk üç muzeydən biri olacaqsa,

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| T | L | F | | | | |

alınar. M gün ərzində gediləcək ya ilk, ya da son muzey olduğundan ardıcıllıq aşağıdakı kimi olar

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| T | L | F | | | | M |

P gedilən son üç muzeydən biri və G-yə H-dan dərhal sonra gedilməli olduğundan

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| T | L | F | H | G | P | M |

**Doğru cavab**: G qrafikdə V yeri tutar.

**A variantı 56 saylı test tapşırığı**
**B variantı 77 saylı test tapşırığı**
**C variantı 59 saylı test tapşırığı**
**D variantı 78 saylı test tapşırığı**

Arıçı yarmarkaya tam doldurulmuş 4, 15, 25, 40, 100 və 150 litrlik qablarda ümumi həcmi 536 litr olan 11 qab bal gətirdi. Mütləq doğru olan mülahizələri seçin.

1. 150 və 25 litrlik qabların birlikdə sayı, 4 və 100 litrlik qabların birlikdə sayı ilə eyni deyildir.
2. 100 və 15 litrlik qabların sayı eyni deyildir.
3. 40 və 150 litrlik qabların sayı eyni deyildir.
4. 15 və 40 litrlik qabların sayı eyni deyildir.
5. 25 və 15 litrlik qabların sayı eyni deyildir.
6. 4 və 100 litrlik qabların sayı eyni deyildir.

A) 2, 3, 5 B) 1, 2, 4 C) 3, 5, 6
D) 1, 4, 6 E) 1, 3, 5

Müxtəlif həcmli 6 qabın birlikdə həcmi 4+15+25+40+100+150=334 litrdir. Qalan balın doldurulduğu 5 (11-6=5) qabın litrlə həcmini göstərən 536-334=202 ədədinin təklik hissəsində 2-ni təmin etmək üçün mümkün variantları analiz edərək bu qablardan üçünün 4 l-lik olması qənaətinə gəlirik. Birlikdə həcmi 202-12=190 l olan 2 (5-3=2) ədəd qabdan biri 150 litrlik, digəri 40 litrlikdir.

| Qabların | |
|---|---|
| tutumu | sayı |
| 4 *l* | 4ədəd |
| 15 *l* | 1ədəd |
| 25 *l* | 1ədəd |
| 40 *l* | 2ədəd |
| 100 *l* | 1ədəd |
| 150 *l* | 2ədəd |
| | |




Bu saylara əsasən 2, 3, 5-ci mülahizələr səhv, 1, 4, 6-cı mülahizələr doğrudur.
**Doğru cavab:** 1, 4, 6

**A variantı 57 saylı test tapşırığı**
**B variantı 53 saylı test tapşırığı**
**C variantı 69 saylı test tapşırığı**
**D variantı 77 saylı test tapşırığı**

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun variantı seçin.

| | | | |
|---|---|---|---|
| 23 | 16 | 66 | 50 |
| 30 | 55 | 4 | 31 |
| 53 | 42 | 23 | 90 |
| 1 | 73 | 60 | ? |

A) 44 B) 58 C) 14 D) 39 E) 31

Qara qalın xətlərlə sərhədlənmiş hər bir blokdakı ədədlərin rəqəmlərinin cəmi 25-ə bərabərdir.
2+3+1+6+3+0+5+5=25
6+6+5+0+4+3+1=25
5+3+4+2+1+7+3=25
2+3+9+0+6+0+X=25
X=25-20=5. Cavab variantlarında verilənlərdən rəqəmlərinin cəmi 5 olan ədəd 14-dür (1+4=5).
**Doğru cavab:** 14

**A variantı 58 saylı test tapşırığı**
**B variantı 56 saylı test tapşırığı**
**C variantı 72 saylı test tapşırığı**
**D variantı 60 saylı test tapşırığı**

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun olan variantı seçin.

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 0,5 | 5,5 | → | 4 | 14 | → | 11 | 31 | → | 25 | 65 |
| 16 | 11,5 | | 35 | 26 | | 73 | ? | | 149 | 113 |

A) 58 B) 55 C) 47 D) 79 E) 74

**Testin həlli**

Hər damadakı ədədi 2-yə vurub üstünə 3gəlib, növbəti cədvəlin uyğun damasındakı ədədi tapırıq.
0,5×2+3=1+3=4
5,5×2+3=11+3=14
16×2+3=32+3=35
11,5×2+3=23+3=26

4×2+3=8+3=11
14×2+3=28+3=31
35×2+3=70+3=73
?=26×2+3=52+3=55

11×2+3=22+3=25
31×2+3=62+3=65
73×2+3=146+3=149
55×2+3=110+3=113
**Doğru cavab:** 55

**A variantı 59 saylı test tapşırığı**
**B variantı 67 saylı test tapşırığı**
**C variantı 52 saylı test tapşırığı**
**D variantı 68 saylı test tapşırığı**

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun variantı seçin.



A)  B)  C) 

D)  E) 

**Testin həlli**

Oxun solundakı və sağındakı fiqurlar verilən simmetriya oxuna nəzərən simmetrikdir.



**Doğru cavab:** 

**A variantı 60 saylı test tapşırığı**
**B variantı 59 saylı test tapşırığı**
**C variantı 76 saylı test tapşırığı**
**D variantı 64 saylı test tapşırığı**

Verilən sözlər cütü arasında məntiqi əlaqəyə analoji olan variantı seçin (sözlərin ardıcıllığı nəzərə alınmalıdır).

*fraza – söz*

A) melodiya – mahnı B) təmsil – nəsihət
C) musiqi – xor D) bina – mərtəbə
E) telefon – teleqram

Testin həlli:

Fraza bir, iki və ya daha artıq sözdən, bina isə bir, iki və ya daha artıq mərtəbədən ibarət olur.

***Doğru cavab:*** bina – mərtəbə

**A variantı 61 saylı test tapşırığı**
**B variantı 47 saylı test tapşırığı**
**C variantı 68 saylı test tapşırığı**
**D variantı 84 saylı test tapşırığı**

Verilən sözlər arasındakı məntiqi əlaqəyə analoji olan variantı seçin.

*idxal – ixrac*

A) əmtəə – pul B) alqı – satqı C) rəqəm – ədəd
D) borc – kredit E) görüş – qəbul

**Testin həlli**

İdxal və ixrac sözləri alqı və satqı sözləri ilə analoji əlaqəyə malikdir.

***Doğru cavab:*** alqı – satqı

**A variantı 62 saylı test tapşırığı**
**B variantı 79 saylı test tapşırığı**
**C variantı 58 saylı test tapşırığı**
**D variantı 46 saylı test tapşırığı**

Verilən fiqura uyğun olan açılışı seçin.



A) 

B) 

C) 

D) 

E) 

Testin həlli:

Verilmiş kuba aşağıdakı açılış uyğundur.



**Doğru cavab:**

**A variantı 63 saylı test tapşırığı**
**B variantı 73 saylı test tapşırığı**
**C variantı 51 saylı test tapşırığı**
**D variantı 70 saylı test tapşırığı**

Qanunauyğunluğu müəyyən edin və “?” əvəzinə uyğun olan variantı seçin.




A) 168  B) 172  C) 186  D) 124  E) 144

**Testin həlli**

Üçbucağın təpə nöqtələrindəki ədədlərin hasili tapılır və 3-ə bölünür.

$$\frac{7\cdot 9\cdot 8}{3}=168$$

$$\frac{12\cdot 7\cdot 6}{3}=168$$

$$\frac{12\cdot 4\cdot 9}{3}=144$$

**Doğru cavab:** 144

**A variantı 64 saylı test tapşırığı**
**B variantı 64 saylı test tapşırığı**
**C variantı 70 saylı test tapşırığı**
**D variantı 62 saylı test tapşırığı**

“?” əvəzinə uyğun variantı seçin.




Testin həlli:

“?” işarəsinin yerinə çəkilməli şəkil soldan 1-ci fiquru dairəyə tamamlamalıdır.



**Doğru cavab:**

**A variantı 65 saylı test tapşırığı**
**B variantı 75 saylı test tapşırığı**
**C variantı 49 saylı test tapşırığı**
**D variantı 48 saylı test tapşırığı**

İlk övladları anadan olanda atanın yaşı ananın yaşından 20% çox idi. 2-ci uşaq dünyaya gələndə ananın yaşı atanın yaşından 16% az oldu. Ananın yaşı atanın yaşının 90%-ni təşkil edəndə onların 3-cü övladı dünyaya gəldi. Atanın yaşı ananın yaşından 8-dən fərqli birrəqəmli ədəd qədər çoxdursa, onların birinci və üçüncü uşaqlarının yaşları fərqi neçə ildir? (Yaşlar natural ədədlərlə göstərilir.)

A) 12 B) 16 C) 15 D) 14 E) 11

**Testin həlli**

2-ci övlad dünyaya gələndə ananın yaşı atanın yaşından 16% az idi, yəni $A_{n2}=0,84A_{t2}$. Bu bərabərlik atanın yaşı 25, 50, 75, 100 və s. olanda doğru olur.

| | | | | |
|---|---|---|---|---|
| | 21 | 42 | 63 | 84 |
| | 25 | 50 | 75 | 100 |

Məsələnin şərtində $A_{n2}=21$ və $A_{t2}=25$ uyğundur. Deməli, ata anadan 4 yaş böyükdür.

1-ci övlad dünyaya gələndə $A_{t1}=1,2A_{n1}$.

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| $A_{n1}$ | 5 | 10 | 15 | 20 | 25 | 30 | 25 | ... |
| $A_{t1}$ | 6 | 12 | 18 | 24 | 30 | 36 | 42 | ... |

Valideynlərin yaş fərqi (4 il) yalnız bir halda mümkündür: $A_{n1}=20$, $A_{t1}=24$.

3-cü övlad dünyaya gələndə $A_{n3}=0,9A_{t3}$.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| $A_{n3}$ | 9 | 18 | 27 | 36 | 45 | 54 | ... |
| $A_{t3}$ | 10 | 20 | 30 | 40 | 50 | 60 | ... |

Valideynlərin yaş fərqi (4 il) yalnız bir halda mümkündür: $A_{t3}=40$, $A_{n3}=36$.

1-ci və 3-cü uşaqların yaş fərqi $A_{t3}-A_{t1}=40-24=16$ və ya $A_{n3}-A_{n1}=36-20=16$ yaş.

**Doğru cavab:** 16

**A variantı 66 saylı test tapşırığı**
**B variantı 58 saylı test tapşırığı**
**C variantı 61 saylı test tapşırığı**
**D variantı 59 saylı test tapşırığı**

Hərflərinin sırası pozulmuş beş sözdən dördü arasında məntiqi əlaqə vardır. Hərflərin düzgün sırasını bərpa edərək fərqli sözü tapın.

A) k o e a g l o y i B) q o z i f o l i C) x i s o p q o l D) q o l f o l i E) t s m o r a n o

**Testin həlli**

Hərflərin düzgün sırasını bərpa etdikdə ekologiya, sosioloq, psixoloq, astronom və fizioloq sözləri alınır. Ekologiya elm sahəsidir. Digər sözlər isə peşə adlarıdır.

**Doğru cavab:** k o e a g l o y i

**A variantı 67 saylı test tapşırığı**
**B variantı 70 saylı test tapşırığı**
**C variantı 74 saylı test tapşırığı**
**D variantı 65 saylı test tapşırığı**

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun variantı seçin.

1●(1 ● 1)= 1
4●(4 ● 2)= 2
10●(15● 3) = 2
8●(12● 3) = 2
9●(6 ●2) = ?

A) 6 B) 18 C) 3 D) 2 E) 9

**Testin həlli**

● operatoru onun solundakı ədədi sağındakı ədədə bölür.

1●(1 ● 1)= 1●(1:1)=1●1=1:1=1
4●(4● 2)=4● (4:2)=4● 2=4:2=2
10●(15●3)=10●(15:3)=10●5=2
8●(12●3)=8●(12:3)=8●4=2
9●(6● 2)=9● (6:2)=9● 3=9:3=3

**Doğru cavab:** 3

**A variantı 68 saylı test tapşırığı**
**B variantı 51 saylı test tapşırığı**
**C variantı 75 saylı test tapşırığı**
**D variantı 82 saylı test tapşırığı**

Rəqəmlərinin hasili 6-ya bərabər olan beşrəqəmli ədədlərdən ən kiçiyini tapın. Bu ədədin sonuncu iki rəqəminin cəmini müəyyən edin.

A) 7 B) 5 C) 4 D) 1 E) 3

**Testin həlli**

Rəqəmlərin hasili 6-ya bərabər olan beşrəqəmli ədədlərdən ən kiçiyi 11116-dır. Bu ədədin sonuncu iki rəqəminin cəmi 7-dir.

**Doğru cavab:** 7

**A variantı 69 saylı test tapşırığı**
**B variantı 46 saylı test tapşırığı**
**C variantı 83 saylı test tapşırığı**
**D variantı 80 saylı test tapşırığı**

Qanunauyğunluğu müəyyən edin və “?” əvəzinə uyğun variantı seçin.




A) 
B) 
C) 
D) 
E) 

**Testin həlli**

Soldakı və sağdakı fiqurların tərəflərinin toplam sayı bütün sıralarda eynidir (18).

**Doğru cavab:** 

**A variantı 70 saylı test tapşırığı**
**B variantı 48 saylı test tapşırığı**
**C variantı 64 saylı test tapşırığı**
**D variantı 73 saylı test tapşırığı**

Hərflərinin sırası pozulmuş beş sözdən dördü arasında məntiqi əlaqə vardır. Hərflərin düzgün sırasını bərpa edərək fərqli sözü tapın.

A) E V E R N A
B) T U R A N S
C) P U N T E N
D) Y E R İ T U P
E) M O S O S K

**Testin həlli**

Hərflərin düzgün sırasını bərpa etdikdə KOSMOS, PLUTON, NEPTUN, VENERA və SATURN sözləri alınır. Bu sözlərdən dördü planet adlarıdır, biri isə bunlardan fərqlidir, yəni KOSMOS planet adı deyil.

**Doğru cavab:** M O S O S K

**A variantı 71 saylı test tapşırığı**
**B variantı 49 saylı test tapşırığı**
**C variantı 81 saylı test tapşırığı**
**D variantı 53 saylı test tapşırığı**

Dörd yerə qatlanmış vərəqdə mürəkkəblə naxışlar edilib. Mürəkkəb kağızın altda qalan hissələrinə keçərək naxışları təkrarlayıb. Fikrən vərəqi açın və uyğun olan cavab variantını seçin.



A) 

B) 

C) 

D) 

E) 

Testin həlli:
Vərəq açılanda alınan vəziyyət aşağıdakı kimi olar.



**Doğru cavab:**

**A variantı 72 saylı test tapşırığı**
**B variantı 66 saylı test tapşırığı**
**C variantı 54 saylı test tapşırığı**
**D variantı 63 saylı test tapşırığı**

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun variantı seçin.




A)  B)  C)  D)  E) 

Testin həlli:
Hər bir sətir və hər bir sütun üzrə fiqurlar () təkrarlanmır.

**Doğru cavab:** 

**A variantı 73 saylı test tapşırığı**
**B variantı 52 saylı test tapşırığı**
**C variantı 66 saylı test tapşırığı**
**D variantı 79 saylı test tapşırığı**

Üç bacı – İradə, Natəvan və Sevil eyni otaqda əyləşiblər. Biri toxuyur, digəri çay içir, üçüncü isə televizora baxır. Onlardan biri universitetdə oxuyur, ikincisi həkim işləyir, üçüncüsü isə məktəbdə oxuyur. İradə həkim deyil, Natəvan isə məktəbli deyil. Həkim televizora baxmır. Məktəbli çay içir. Natəvan toxumağı bacarmır.

Tələbənin adı nədir və o, hal-hazırda nə edir?

A) Sevil, toxuyur
B) Natəvan, çay içir
C) İradə, televizora baxır
D) İradə, toxuyur
E) Natəvan, televizora baxır

**Testin həlli**

Natəvan məktəbli olmadığına, toxumağı bacarmadığına və məktəblinin çay içdiyinə görə aşağıdakı cədvəldə göstərilən vəziyyət alınır.

| Ad | Nə edir? | | | Məşğuliyyəti | | |
|---|---|---|---|---|---|---|
| | Çay içir | Televizora baxır | Toxuyur | Məktəbli | Tələbə | Həkim |
| İradə | | | | | | |
| Natəvan | | + | | | | |
| Sevil | | | | | | |

Həkim televizora baxmadığına görə

| Ad | Nə edir? | | | Məşğuliyyəti | | |
|---|---|---|---|---|---|---|
| | Çay içir | Televizora baxır | Toxuyur | Məktəbli | Tələbə | Həkim |
| İradə | | | | | | |
| Natəvan | | + | | | | |
| Sevil | | | | | | |

İradə həkim olmadığına görə

| Ad | Nə edir? | | | Məşğuliyyəti | | |
|---|---|---|---|---|---|---|
| | Çay içir | Televizora baxır | Toxuyur | Məktəbli | Tələbə | Həkim |
| İradə | | | | + | | |
| Natəvan | | + | | | + | |
| Sevil | | | | | | + |

Məktəbli çay içdiyinə görə

| Ad | Nə edir? | | | Məşğuliyyəti | | |
|---|---|---|---|---|---|---|
| | Çay içir | Televizora baxır | Toxuyur | Məktəbli | Tələbə | Həkim |
| İradə | + | | | + | | |
| Natəvan | | + | | | + | |
| Sevil | | | + | | | + |

Tələbənin adı Natəvandır və o, televizora baxır.

**Doğru cavab:** Natəvan, televizora baxır

**A variantı 74 saylı test tapşırığı**
**B variantı 74 saylı test tapşırığı**
**C variantı 60 saylı test tapşırığı**
**D variantı 61 saylı test tapşırığı**

Qanunauyğunluğu müəyyən edin və “?” əvəzinə uyğun olan variantı seçin.

8 7 7 5 10 7 21 ? 68 63 315

A) 27 B) 17 C) 9 D) 3 E) 7

**Testin həlli**

8-1=7
7×1=7
7-2=5
5×2=10
10-3=7
7×3=21
21-4=17
17×4=68
68-5=63
63×5=315

**Doğru cavab:** 17

**A variantı 75 saylı test tapşırığı**
**B variantı 61 saylı test tapşırığı**
**C variantı 65 saylı test tapşırığı**
**D variantı 49 saylı test tapşırığı**

“?” əvəzinə hansı ədəd yazılmalıdır?

$$\times\begin{array}{r} AB \\ C \\ \hline 531 \end{array} \qquad \times\begin{array}{r} AB \\ D \\ \hline 472 \end{array} \qquad \times\begin{array}{r} AB \\ CD \\ \hline ? \end{array}$$

A) 1003 B) 5782 C) 5554 D) 5672 E) 5924

**Testin həlli**

$$\times\begin{array}{r} AB \\ CD \\ \hline 472 \\ +\ 531\phantom{0} \\ \hline 5782 \end{array}$$

AB×C=531, AB×D=472

AB×CD=AB×(C×10+D)=AB×C×10+AB×D=531·10+472=5782

**Doğru cavab:** 5782

**A variantı 76 saylı test tapşırığı**
**B variantı 50 saylı test tapşırığı**
**C variantı 67 saylı test tapşırığı**
**D variantı 72 saylı test tapşırığı**

Şəkildəki ABCD düzbucaqlısı bərabər ölçülü kvadratlardan təşkil olunub. AB = 22 sm olarsa, rəngli hissənin sahəsi neçə $sm^2$ olar?




A) 150 B) 146 C) 144 D) 148 E) 152

Testin həlli:
Rənglənmiş hissənin sahəsi həmin hissənin ayrı-ayrı elementlərinin sahələri cəminə bərabərdir. Rənglənmiş hissənin sahəsinin 38 kiçik kvadratın sahələri cəminə bərabər olduğunu və 1 kvadratın sahəsinin 4 $\left(\frac{AB}{11}\cdot\frac{AB}{11}=\frac{22}{11}\cdot\frac{22}{11}=4\right)$ $sm^2$ olduğunu bilərək rənglənmiş hissənin sahəsinin 38·4=152 $sm^2$ olduğunu müəyyənləşdiririk.

**Doğru cavab:** 152

**A variantı 77 saylı test tapşırığı**
**B variantı 68 saylı test tapşırığı**
**C variantı 77 saylı test tapşırığı**
**D variantı 47 saylı test tapşırığı**

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun olan variantı seçin.




A) BBA B) AA C) BA D) BAA E) BB

1-ci tərəzinin qollarındakılarla 2-ci tərəzinin uyğun qollarındakıları topladıqda AABBBBC=CCCAA alınar. Buradan da BBBB=CC və ya BB=C

**Doğru cavab:** BB

**A variantı 78 saylı test tapşırığı**
**B variantı 69 saylı test tapşırığı**
**C variantı 56 saylı test tapşırığı**
**D variantı 67 saylı test tapşırığı**

*1970-1990-cı illər ərzində Yer kürəsində 200 mln ha meşə örtüyü itirilmiş, səhralıqların sahəsi təxminən 120 mln ha artmış, 180 mlrd ton əkinə yararlı torpaq qatı məhv edilmişdir. Bununla yanaşı, dünya əhalisinin sayı bu müddət ərzində 1,6 mlrd nəfər artmışdır. Demoqrafların hesablamalarına görə, 2030-cu ilə əhalinin sayı 10 mlrd nəfərə çatacaqdır.*

Bu tendensiya aşağıdakı nəticələrdən hansına səbəb ola ***bilməz***?

A) münaqişələrin, müharibələrin artmasına
B) dünyanın fiziki xəritəsinin dəyişməsinə
C) bioloji növ müxtəlifliyinin azalmasına
D) atmosferin qoruyucu ozon qatının qalınlaşmasına
E) atmosferdə qazların normal nisbətinin pozulmasına

**Testin həlli**

Mətndə vurğulanan tendensiya bioloji növ müxtəlifliyinin azalmasına, dünyanın fiziki xəritəsinin dəyişməsinə, münaqişələrin, müharibələrin artmasına , atmosferdə qazların normal nisbətinin pozulmasına səbəb ola bilər.

Vurğulanan tendensiya ozon qatının qalınlaşmasına səbəb ola bilməz, çünki bunun üçün lazım olan oksigenin miqdarı meşə örtüyü azaldıqda, əkinə yararlı torpaq qatı məhv edildikdə azalır.

**Doğru cavab:** atmosferin qoruyucu ozon qatının qalınlaşmasına

**A variantı 79 saylı test tapşırığı**
**B variantı 65 saylı test tapşırığı**
**C variantı 78 saylı test tapşırığı**
**D variantı 52 saylı test tapşırığı**




5 uşaq və 6 valideyn aşağıdakı qaydalara uyğun olaraq şəkildəki kimi dairəvi masa arxasında oturublar:

● hər valideynin bir tərəfində uşaq, o biri tərəfində valideyn oturmalıdır;
● hər uşaq yalnız öz valideyninin yanında oturmalıdır.

Verilmiş qaydaları pozmadan bu masa arxasında əlavə olaraq aşağıdakılardan hansıların oturması mümkündür?

I. Ana və atası ilə uşaq
II. İki uşağı ilə ana
III. Ana ilə uşağı

A) yalnız I B) II və III C) I və II
D) yalnız III E) yalnız II

Testin həlli:


üçlüyü 2 valideynin arasında otursa, məsələnin şərti pozulmaz. Lakin  (iki uşaqlı ana) 2 valideyn arasında otursa, "hər bir valideynin bir tərəfində uşaq, digər tərəfində valideyn oturmalıdır" şərti, uşaqla valideyn arasında otursa, "hər uşaq öz valideyninin yanında oturmalıdır" şərtini,  üçlüyü iki uşaq arasında otursa, "hər bir valideynin bir tərəfində uşaq, digər tərəfində valideyn oturmalıdır" şərtini pozur.  cütlüyü 2 uşağın və 2 valideynin arasında otursa "hər bir valideyn bir tərəfində uşaq, digər tərəfində valideyn oturmalıdır" şərtini, valideynlə uşaq arasında otursa, "hər uşaq öz valideyninin yanında oturmalıdır" şərtini pozar. Beləliklə, doğru cavab Ana və atası ilə uşaqdır.

**Doğru cavab:** yalnız I

**A variantı 80 saylı test tapşırığı**
**B variantı 76 saylı test tapşırığı**
**C variantı 57 saylı test tapşırığı**
**D variantı 74 saylı test tapşırığı**

"?" əvəzinə hansı ədəd yazılmalıdır?

$$-\begin{array}{r} AACD \\ ADC \\ \hline D9DD \end{array} \quad A+D=?$$

A) 13 B) 11 C) 10 D) 12 E) 14

**Testin həlli**

$$-\begin{array}{r} 6605 \\ 650 \\ \hline 5955 \end{array}$$

*D – C = D, C*=0. C=0 olduğundan A-dan 1 vahid C-yə ayırdıqda 10 olur və 10-dan 5 çıxdıqda fərqdə özü alına bilən rəqəm yalnız 5-dir. Yəni D=5, əvvəlki A-dan birini ayırdıqdan sonra D alınıb. Yəni A-1=D. Deməli A=6.
6+5=11

**Doğru cavab:** 11

**A variantı 81 saylı test tapşırığı**
**B variantı 63 saylı test tapşırığı**
**C variantı 62 saylı test tapşırığı**
**D variantı 50 saylı test tapşırığı**

Verilən sözlər cütünə analoji əlaqəli olan natamam cütü tamamlayın.

*sosiologiya – elm; defektoskop – ?*

A) mikroskop B) optika C) virus
D) cihaz E) qüsur

**Testin həlli**

Sosiologiya cəmiyyət haqqında elmdir, defektoskop isə material və məmulatda nöqsan olub-olmamasını yoxlamaq üçün cihazdır (konkretdən ümumiyə)

**Doğru cavab:** cihaz

**A variantı 82 saylı test tapşırığı**
**B variantı 82 saylı test tapşırığı**
**C variantı 71 saylı test tapşırığı**
**D variantı 69 saylı test tapşırığı**

Verilən açılışa uyğun olan variantı seçin.



A)  B)  C) 

D)  E) 

Testin həlli:

**Doğru cavab:** 

**A variantı 83 saylı test tapşırığı**
**B variantı 55 saylı test tapşırığı**
**C variantı 55 saylı test tapşırığı**
**D variantı 54 saylı test tapşırığı**

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun olan variantı seçin.

TURXAN – Db Aa Uc Kf Bd Te
MAHİR – Tb Cd Ec Ha Ue
? – Uc Hb Td Ke Ca

A) İMRAN B) TURAN C) TAHİR
D) XANIM E) RAMİN

**Testin həlli**

TURXAN sözünün hərfləri $D_b$, $A_a$, $U_c$, $K_f$, $B_d$ və $T_e$ işarələri ilə işarələnib. Hər bir işarə böyük hərfdən və indeksdəki kiçik hərfdən ibarətdir. Hansı işarənin hansı hərfi şifrələdiyini müəyyənləşdirmək üçün işarələri onların indekslərindəki hərflərin əlifba sırasında yerləşmə ardıcıllığına görə düzmək lazımdır. Bu sıra $A_a$, $D_b$, $U_c$, $B_d$, $T_e$ və $K_f$ şəklində alınır.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Hərflər | T | U | R | X | A | N |
| Şifrələr | $A_a$ | $D_b$ | $U_c$ | $B_d$ | $T_e$ | $K_f$ |

MAHİR sözünün hərfləri $T_b$, $C_d$, $E_c$, $H_a$ və $U_e$ işarələri ilə işarələnib. Hansı işarənin hansı hərfi şifrələdiyini müəyyənləşdirmək üçün işarələri onların indekslərindəki hərflərin əlifba sırasında yerləşmə ardıcıllığına görə düzmək lazımdır. Bu sıra $H_a$, $T_b$, $E_c$, $C_d$ və $U_e$ şəklində alınır.

| | | | | | |
|---|---|---|---|---|---|
| Hərflər | M | A | H | İ | R |
| Şifrələr | $H_a$ | $T_b$ | $E_c$ | $C_d$ | $U_e$ |

$U_c$, $H_b$, $T_d$, $K_e$ və $C_a$ işarələrini onların indekslərindəki hərflərin əlifba sırasında yerləşmə ardıcıllığına görə düzəndə $C_a$, $H_b$, $U_c$, $T_d$ və $K_e$ alınır.

| | | | | | |
|---|---|---|---|---|---|
| Şifrələr | $C_a$ | $H_b$ | $U_c$ | $T_d$ | $K_e$ |
| Hərflər | İ | M | R | A | N |

**Doğru cavab:** İMRAN

**A variantı 84 saylı test tapşırığı**
**B variantı 60 saylı test tapşırığı**
**C variantı 82 saylı test tapşırığı**
**D variantı 71 saylı test tapşırığı**

Birinci sırada verilən sözlər arasında məntiqi əlaqəyə əsasən ikinci sıranı tamamlayın.

*teleskop – cihaz – astronomiya*
*istiot – ədviyyat – ...*

A) bağçılıq B) kulinariya C) laboratoriya
D) səhiyyə E) əczaçılıq

Testin həlli:

Teleskop astronomiyada (göy cisimlərinin öyrənilməsində) istifadə edilən optik cihaz, istiot kulinariyada istifadə edilən ədviyyatdır.

***Doğru cavab:*** kulinariya

***85 – 87 saylı tapşırıqları aşağıdakı mətnə əsasən yerinə yetirin.***

Biologiya müəllimi həftədə beş gün (I–V günlər) məktəbin dörd X ($X^a$, $X^b$, $X^c$, $X^d$) və dörd XI sinfinə ($XI^a$, $XI^b$, $XI^c$, $XI^d$) dərs deyir. Cədvələ görə, müəllimin hər gün iki saat dərsi var: bir saat X və bir saat XI sinifdə. Yalnız bir X və bir XI sinfin həftədə 2 saat, digər siniflərin həftədə 1 saat biologiya dərsi olur.

Məlumdur ki, müəllimin:

- çərşənbə günü $X^a$ sinfində dərsi var;
- $XI^b$ sinfində həftədə yalnız bir dəfə dərsi var;
- $XI^b$ sinfində dərsi olan gün $X^c$ sinfində də dərsi var;
- bazar ertəsi günü $X^d$ və $XI^a$ siniflərində dərsi var;
- çərşənbə axşamı və cümə axşamı günləri eyni bir XI sinifdə dərsi var;
- cümə axşamı və cümə günləri eyni bir X sinifdə dərsi var.

**A variantı 85 saylı test tapşırığı**
**B variantı 85 saylı test tapşırığı**
**C variantı 85 saylı test tapşırığı**
**D variantı 87 saylı test tapşırığı**

Müəllimin eyni hərflə işarələnən X və XI siniflərə həftənin eyni günü dərsi yoxdursa (məsələn, $X^a$-ya dərsi olan gün $XI^a$-ya dərsi yoxdur və s.), cümə axşamı hansı siniflərə dərsi var?

A) $X^a$, $XI^d$ B) $X^b$, $XI^c$ C) $X^c$, $XI^b$
D) $X^d$, $XI^a$ E) $X^c$, $XI^d$

Testin həlli:

| Sinif | | Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə |
|---|---|---|---|---|---|---|
| X | $X^a$ | | | + | | |
| | $X^b$ | | + | | | |
| | $X^c$ | | | | + | + |
| | $X^d$ | + | | | | |
| XI | $XI^a$ | + | | | | |
| | $XI^b$ | | | | | + |
| | $XI^c$ | | | + | | |
| | $XI^d$ | | + | | + | |

**Doğru cavab:** $X^c$, $XI^d$

**A variantı 86 saylı test tapşırığı**
**B variantı 86 saylı test tapşırığı**
**C variantı 86 saylı test tapşırığı**
**D variantı 86 saylı test tapşırığı**

Aşağıdakı hansı cütlüyü təşkil edən siniflərin hər birində çərşənbə axşamı müəllimin biologiya dərsi ola bilər?

A) $XI^b$ , $XI^c$ B) $XI^a$ , $XI^c$ C) $XI^a$ , $XI^b$
D) $XI^c$ , $XI^d$ E) $XI^a$ , $XI^d$

Testin həlli:

| Sinif | | Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə |
|---|---|---|---|---|---|---|
| X | $X^a$ | | | + | | |
| | $X^b$ | | + | | | |
| | $X^c$ | | | | + | + |
| | $X^d$ | + | | | | |
| XI | $XI^a$ | + | | | | |
| | $XI^b$ | | | | | + |
| | $XI^c$ | | + | | + | |
| | $XI^d$ | | | + | | |

| Sinif | | Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə |
|---|---|---|---|---|---|---|
| X | $X^a$ | | | + | | |
| | $X^b$ | | + | | | |
| | $X^c$ | | | | + | + |
| | $X^d$ | + | | | | |
| XI | $XI^a$ | + | | | | |
| | $XI^b$ | | | | | + |
| | $XI^c$ | | | + | | |
| | $XI^d$ | | + | | + | |

**Doğru cavab:** $XI^c$ , $XI^d$

**A variantı 87 saylı test tapşırığı**
**B variantı 87 saylı test tapşırığı**
**C variantı 87 saylı test tapşırığı**
**D variantı 85 saylı test tapşırığı**

Aşağıdakılardan hansını müəyyən etmək mümkündür?

1. X siniflərdən hansına müəllimin həftədə iki saat dərsinin olmasını
2. XI siniflərdən hansına müəllimin həftədə iki saat dərsinin olmasını
3. cümə günü müəllimin X siniflərdən hansına dərsinin olmasını
4. həftənin hansı günlərində müəllimin $XI^a$ sinfinə dərsinin ***olmamasını***

A) 1, 2, 3   B) yalnız 3, 4   C) yalnız 1, 3
D) 1, 3, 4   E) yalnız 1, 2

Testin həlli:

| Sinif | | Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə |
|---|---|---|---|---|---|---|
| X | $X^a$ | | | + | | |
| | $X^b$ | | + | | | |
| | $X^c$ | | | | + | + |
| | $X^d$ | + | | | | |
| XI | $XI^a$ | + | | | | |
| | $XI^b$ | | | | | + |
| | $XI^c$ | | + | | + | |
| | $XI^d$ | | | + | | |

| Sinif | | Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə |
|---|---|---|---|---|---|---|
| X | $X^a$ | | | + | | |
| | $X^b$ | | + | | | |
| | $X^c$ | | | | + | + |
| | $X^d$ | + | | | | |
| XI | $XI^a$ | + | | | | |
| | $XI^b$ | | | | | + |
| | $XI^c$ | | | + | | |
| | $XI^d$ | | + | | + | |

**Doğru cavab:** 1, 3, 4

***88 – 90 saylı tapşırıqları***
***verilən cədvələ əsasən yerinə yetirin.***

| | | | | |
|---|---|---|---|---|
| 3 | 10 | 16 | 8 | X |
| 27 | 21 | 16 | 23 | Y |
| 32 | 40 | 34 | 38 | Z |
| 17 | 15 | 9 | 4 | G |
| 22 | 15 | 26 | 28 | F |

**A variantı 88 saylı test tapşırığı**
**B variantı 88 saylı test tapşırığı**
**C variantı 88 saylı test tapşırığı**
**D variantı 88 saylı test tapşırığı**

Qanunauyğunluğu taparaq "?" əvəzinə uyğun olan ədədi müəyyən edin.

Z =?

A) 27   B) 23   C) 25   D) 29   E) 21

**Testin həlli**

Sıradakı ədədlərlə ən kiçik olması ehtimal edilən ədədin fərqinə diqqət yetirilsə, aşağıdakı vəziyyət aşkarlanar:

I sıra — 3 ən kiçik ədəd olsa, fərqlər: 7, 13, 5, X-3 olar.
II sıra — 16 ən kiçik ədəd olsa, fərqlər: 11, 5, 7, Y-16 olar.
III sıra — 32 ən kiçik ədəd olsa, fərqlər: 8, 2, 6, Z-32 olar.
IV sıra — 4 ən kiçik ədəd olsa, fərqlər: 13, 11, 5, G-4 olar.

V sıra — 15 ən kiçik ədəd olsa, fərqlər: 7, 11, 13, F-15 olar.
Fərqlərə diqqət yetirilsə, məlum olar ki, yalnız 3-cü sırada fərq (8, 2 və 6) digər sıralardakından (5, 7, 11 və 13) tamamilə fərqlənir. Tablodakı qanunauyğunluğu bərpa etmək üçün 3-cü sıradakı fərqlərin də digər sıralardakına (5, 7, 11 və 13) uyğunlaşdırmaq lazımdır. Bu da həmin sıradakı ən kiçik ədədin 32 yox, Z=32-5=27 olduğu halda mümkündür.
**Doğru cavab:** 27

**A variantı 89 saylı test tapşırığı**
**B variantı 89 saylı test tapşırığı**
**C variantı 89 saylı test tapşırığı**
**D variantı 89 saylı test tapşırığı**

Qanunauyğunluğu taparaq "?" əvəzinə uyğun olan ədədi müəyyən edin.
X+Y+Z+G+F=?
A) 101 B) 103 C) 102 D) 100 E) 104

Testin həlli:
101. Sütunlardakı ədədlərin cəmi eynidir.
X+Y+Z+G+F=3+27+32+17+22=10+21+40+15+15=16+16+34+9+26=8+23+38+4+28=101
**Doğru cavab:** 101

**A variantı 90 saylı test tapşırığı**
**B variantı 90 saylı test tapşırığı**
**C variantı 90 saylı test tapşırığı**
**D variantı 90 saylı test tapşırığı**

Qanunauyğunluğu taparaq "?" əvəzinə uyğun olan ədədi müəyyən edin.
Y + Z – ( X + G + F ) = ?
A) 9 B) 15 C) 17 D) 11 E) 13

**Testin həlli**
Sıradakı ədədlərlə ən kiçik olması ehtimal edilən ədədin fərqinə diqqət yetirilsə, aşağıdakı vəziyyət aşkarlanar:
I sıra — 3 ən kiçik ədəd olsa, fərqlər: 7, 13, 5, X-3 olar.
II sıra — 16 ən kiçik ədəd olsa, fərqlər: 11, 5, 7, Y-16 olar.
III sıra — 32 ən kiçik ədəd olsa, fərqlər: 8, 2, 6, Z-32 olar.
IV sıra — 4 ən kiçik ədəd olsa, fərqlər: 13, 11, 5, G-4 olar.
V sıra — 15 ən kiçik ədəd olsa, fərqlər: 7, 11, 13, F-15 olar.
Fərqlərə diqqət yetirilsə, məlum olar ki, yalnız 3-cü sırada fərq (8, 2 və 6) digər sıralardakından (5, 7, 11 və 13) tamamilə fərqlənir. Tablodakı qanunauyğunluğu bərpa etmək üçün 3-cü sıradakı fərqlərin də digər sıralardakına (5, 7, 11 və 13) uyğunlaşdırmaq lazımdır. Bu da həmin sıradakı ən kiçik ədədin 32 yox, 32-5=27 olduğu halda mümkündür.
Hər bir sırada ədədlərin 4-ü ən kiçik ədədin üzərinə 5, 7, 11, 13 ədədlərinin əlavə olunmasından alınır. Hər bir sütundakı digər ədədlər onların aid olduğu sətirlər üzrə əsas ədədin üzərinə 5, 7, 11, 13 ədədlərini gəlməklə alınır.
I sıra — 3 əsas ədəddir. 3+5= 8, 3+7=10, 3+11=14, 3+13=16.
II sıra — 16 əsas ədəddir. 16+5=21, 16+7=23, 16+11=27, 16+13=29.
III sıra — 27 əsas ədəddir. 27+5=32, 27+7=34, 27+11=38, 27+13=40.
IV sıra — 4 əsas ədəddir. 4+5= 9, 4+7=11, 4+11=15, 4+13=17.
V sıra — 15 əsas ədəddir. 15+5=30, 15+7=22, 15+11=26, 15+13=28.
Y + Z – ( X + G + F ) =29+27-(14+11+20)=56-45=11.

| | | | | |
|---|---|---|---|---|
| 3 | +7 | +13 | +5 | +11 |
| +11 | +5 | 16 | +7 | +13 |
| +5 | +13 | +7 | +11 | 27 |
| +13 | +11 | +5 | 4 | +7 |
| +7 | 15 | +11 | +13 | +5 |

| | | | | |
|---|---|---|---|---|
| 3 | 10 | 16 | 8 | 14 |
| 27 | 21 | 16 | 23 | 29 |
| 32 | 40 | 34 | 38 | 27 |
| 17 | 15 | 9 | 4 | 11 |
| 22 | 15 | 26 | 28 | 20 |

**Doğru cavab:** 11

**A variantı 91 saylı test tapşırığı**
**B variantı 92 saylı test tapşırığı**
**C variantı 92 saylı test tapşırığı**
**D variantı 91 saylı test tapşırığı**

Sonundakı "5" rəqəmini əvvəlinə keçirsələr, 3 dəfə böyüyə bilən ədədlərdən ən kiçiyini müəyyən edin. Bu ədədin soldan 2 və 4-cü rəqəmlərinin cəmi neçədir?

**Testin həlli**

1 724 137 931 034 482 758 620 689 655 x 3 = 51 724 137 931 034 482 758 620 689 65.

Sonundakı "5" rəqəmini əvvəlinə keçirəndə 3 dəfə arta bilən ədədlərdən ən kiçiyinin soldan 2 və 4-cü rəqəmlərinin cəmi (7+4=11)

**Doğru cavab:** 11

**A variantı 92 saylı test tapşırığı**
**B variantı 91 saylı test tapşırığı**
**C variantı 93 saylı test tapşırığı**
**D variantı 92 saylı test tapşırığı**

Mahir, Tünzalə, Sevda, Şəbnəm, Rəşad, Vaqif, Kəmalə və Anar rəsm, xarici dil, cüdo və piano məşğələlərinə (hər biri yalnız 1 məşğələyə) gedirlər.

- ♦ Hər məşğələdə sadalananlardan ikisi iştirak edir.
- ♦ Tünzalə piano məşğələsinə gedir.
- ♦ Sevda və Rəşad eyni məşğələyə gedirlər.
- ♦ Mahir və Anar müxtəlif məşğələlərə gedirlər.
- ♦ Xarici dil məşğələsinə gedənlər yalnız qızlardır.

Aşağıdakılardan hansılar mütləq doğrudur?

1. Şəbnəm piano məşğələsinə gedir.
2. Mahir və Kəmalə müxtəlif məşğələlərə gedirlər.
3. Vaqif və Anar eyni məşğələyə gedirlər.
4. Mahir cüdo ilə məşğul olur.
5. Kəmalə xarici dil məşğələsinə gedir.

**Testin həlli**

Tünzalə piano, Sevda isə şərtə görə xarici dil kursuna getməsi mümkün olmayan Rəşad ilə eyni məşğələyə getdiyindən Kəmalə ilə Şəbnəmin xarici dil kursuna getdiyi hökmü ortaya çıxır. (Oğlanlar xarici dil məşğələsində iştirak etmir.) Beləliklə, "Mahir və Anar müxtəlif məşğələlərə gedirlər" və "Kəmalə xarici dil məşğələsinə gedir" mülahizələri mütləq doğrudur. Verilənlərə əsasən, digər variantlardakı hökmlərin mütləq doğru olmasını iddia edə bilmərik.

| Ad | Məşğələ | | | |
|---|---|---|---|---|
| | Rəsm | Xarici dil | Cüdo | Piano |
| Mahir | | | | |
| Tünzalə | | | | + |
| Sevda | + | | | |
| Şəbnəm | | + | | |
| Rəşad | + | | | |
| Vaqif | | | + | |
| Kəmalə | | + | | |
| Anar | | | | |

| Ad | Məşğələ | | | |
|---|---|---|---|---|
| | Rəsm | Xarici dil | Cüdo | Piano |
| Mahir | | | | |
| Tünzalə | | | | + |
| Sevda | | | + | |
| Şəbnəm | | + | | |
| Rəşad | | | + | |
| Vaqif | + | | | |
| Kəmalə | | + | | |
| Anar | | | | |

| | |
|---|---|
| Mütləq doğru olan mülahizələr | 2. Mahir və Kəmalə müxtəlif məşğələlərə gedirlər<br>5. Kəmalə xarici dil məşğələsinə gedir |
| Mütləq doğru olmayan mülahizələr | 1. Şəbnəm piano məşğələsinə gedir<br>3. Vaqif və Anar eyni məşğələlərə gedirlər<br>4. Mahir cüdo məşğələsinə gedir |

**Doğru cavab:** 2, 5

**A variantı 93 saylı test tapşırığı**
**B variantı 93 saylı test tapşırığı**
**C variantı 91 saylı test tapşırığı**
**D variantı 93 saylı test tapşırığı**

Müəyyən zaman kəsiyində sürücülük vəsiqəsi alanlar yalnız gənclər və ortayaşlılardır. Məlumdur ki, onlardan:

– 2000 nəfər gənc, 700 nəfər ortayaşlıdır;
– 500 nəfəri ortayaşlı olmaqla, 1700 nəfər qadındır.

Bu zaman kəsiyində sürücülük vəsiqəsi alan kişilərdən neçəsi gəncdir?

Testin həlli:

| Sürücülük vəsiqəsini alanların sayı | | | |
|---|---|---|---|
| Gənclər | | Ortayaşlılar | |
| Kişi | Qadın | Kişi | Qadın |
| 800 | 1200 | 200 | 500 |
| 2000 | | 700 | |

**Doğru cavab:** 800

**A variantı 94 saylı test tapşırığı**
**B variantı 94 saylı test tapşırığı**
**C variantı 94 saylı test tapşırığı**
**D variantı 94 saylı test tapşırığı**

Verilmiş 9 fiquru ***fırlatmamaq*** şərti ilə şəkildə verilmiş 3×3 formasında elə yığın ki, müxtəlif fiqurlara aid qonşu rəqəmlər eyni olsun. Şəkildə göstərilən hərflərin yerlərinə düşəcək rəqəmləri həmin hərflərin ***abcd*** ardıcıllığına uyğun düzün.







Testin həlli








a=2, b=1, c=3, d=4⇒abcd→2134
**Doğru cavab:** 2134

**A variantı 95 saylı test tapşırığı**
**B variantı 95 saylı test tapşırığı**
**C variantı 95 saylı test tapşırığı**
**D variantı 95 saylı test tapşırığı**




Şəkildə hər biri bağlar vasitəsilə bir neçə kvadrat ilə əlaqələnən 11 kvadratdan ibarət fiqur verilmişdir. Bu fiqur deformasiyaya uğrayaraq aşağıdakı şəklə düşmüşdür (kvadratlar bir-birinə nəzərən yerini dəyişmiş, lakin bağlar qırılmamışdır).




*X* və *Y* ilə hansı kvadratların işarələndiyini müəyyən edərək uyğunluq qurun.
1. X
2. Y

a. O
b. V
c. G
d. K
e. H

**Testin həlli**
5 əlaqəli E və L hərflərinin ümumi qonşusu G hərfidir. G-nin qonşusu O hərfi 5 əlaqəli L və 3 əlaqəli P hərfləri ilə qonşudur. Digər 5 əlaqəli E-dir. P-nin qönşusu H hərfi 4 əlaqəli U və 3 əlaqəli V ilə qonşuluq edir. U hərfi 4 əlaqəli K və 3 əlaqəli F ilə qonşuluq edir. Boş yerdə qalan R hərfidir.
( X, Y) =K, V




**Doğru cavab:** 1 – d; 2 – b